**Prezident İlham Əliyev Vasif Talıbova "Şərəf" ordenini təqdim edib**



Bax 2

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Polad Bülbüloğlunu təbrik edib**



Bax 2

**"Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacaq"**



Bax 4




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 022 (5987) 5 fevral 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycanın beynəlxalq aləmdəki imzası mötəbərliliyi ilə seçilir

Azərbaycan Prezidenti: "Sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir"



Bax 3

# Qürurumuz, iftixarımız - Azərbaycan BAYRAĞI



Bax 5

Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı.

*Heydər Əliyev*

**Bayraq qürurumuz, iftixar hissimizdir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir". Müasir dünyada müstəqil Azərbaycan dövlətinin rəmzləri onun dövlətçilik əlaməti olmaqla yanaşı, ölkənin tarixi keçmişindən gələn və gələcəyə istiqamətlənən özünəməxsusluğunu...**

## Ermənistan futbolunun keçmiş "patronu" saxlanılıb



*Ermənistan Futbol Federasiyasının sabiq prezidenti Ruben Ayrapetyan zorla polis bölməsinə aparılıb. Qol.az xəbər verir ki, bu barədə xəbəri onun vəkili Amram Makinyan yayıb. O bildirib ki, federasiyanın sabiq rəhbəri maskalı polis əməkdaşları tərəfindən saxlanılıb. Vəkilin sözlərinə görə, bu addım əsassız...*

Bax 16

## Yevgeni Kozyak: Azərbaycanda seçkiöncəsi proses qanunauyğun şəkildə aparılır



*MDB müşahidə missiyası Milli Məclisə keçirilən seçkilərlə bağlı monitorinqini davam etdirir. MDB müşahidəçiləri Qəbələ, İsmayıllı, Oğuz, Şamaxı, Şəki rayonlarında və Naxçıvan Muxtar Respublikasındakı dairə seçki komissiyalarının işi ilə tanış...*

Bax 2



**Belkıs Yakıcı: "Azərbaycanda keçiriləcək parlament seçkiləri cəmiyyətin siyasi həyatına yeni rəng qatacaq"**

*Azərbaycanda müasirləşmə istiqamətində böyük addımlar atılıb. Prezident İlham Əliyevin apardığı son islahatlar...*

Bax 5



## Ət və kolbasanın ölümcül təhlükəsi

Elm adamları ət və kolbasanın insan sağlamlığına ölümcül təhlükə yaratdığını aşkarlayıblar. SİA RenTv-yə istinadən xəbər verir ki, Şimal-Qərb Universitetinin (Çikaqo) və Cornell Universitetinin (New York) Finberg Tibb Məktəbinin....

Bax 16

**"Təbliğat kampaniyası yüksək fəallıq, sağlam rəqabət şəraitində keçir"**



Bax 4

**Bəhruz Quliyev: "Azərbaycanda sahibkarlıq sahəsi yaxın zamanlarda daha böyük uğurlara imza atacaq"**



Bax 4

**Polad Bülbüloğlu: Şah əsərim Qarabağ haqqında yazacağım Qələbə marşı olacaq**



Bax 4

# Prezident İlham Əliyev Vasif Talıbova "Şərəf" ordenini təqdim edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında görülən işlər barədə dövlətimizin başçısına məruzə etdi. O, 2019-cu ildə Naxçıvanda sosial-iqtisadi, kənd təsərrüfatı, tikinti, turizm və digər sahələrdə qazanılan uğurlardan danışdı və bütün bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını dərin minnətdarlıq hissi ilə qeyd etdi.

Prezident İlham Əliyev Naxçıvanda 2019-cu ildə əldə olunmuş uğurlar münasibətilə Vasif Talıbovu təbrik etdi. Dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikasının inkişafı və təhlükəsizliyi məsələlərinin daim onun diqqət mərkəzində olduğunu vurğulayaraq, prezidentlik dövründə 14 dəfə Naxçıvana səfər etməsini bu diqqətin təzahürü kimi dəyərləndirdi. Bu ilin yanvar ayında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Vasif Talıbov 60 illik yubileyi münasibətilə "Şərəf" ordeni ilə təltif edilib. Bu gün Prezident İlham Əliyev "Şərəf" ordenini Vasif Talıbova təqdim etdi. Vasif Talıbov onun fəaliyyətinə verilən yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Polad Bülbüloğlunu təbrik edib



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bəstəkar, müğənni və ictimai xadim, Xalq artisti, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunu 75 yaşının tamam olması və "Heydər Əliyev" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın "Instagram" səhifəsində yer alan təbrikdə deyilir:

"Azərbaycan Respublikasının Xalq artisti, ölkəmizin Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunu 75 illiyi və "Heydər Əliyev" ordeni ilə təltif olunması münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Polad Bülbüloğlu yaradıcılığı insanların qəlbini mehribanlıq, nəciblik, yenilməz ruh yüksəkliyi kimi hisslərlə əhatə edir. Qeyri-adi istedadı və tükənməz enerjisi ona zaman çərçivəsi ilə məhdudlaşmayan gözəl əsərlər yaratmağa imkan vermişdir. Onun mahnıları müxtəlif nəslin nümayəndələri tərəfindən çox sevilir. Dost və pərəstişkarlarının sevgi və hörmətini qazanmış parlaq və istedadlı şəxsiyyət Polad Bülbüloğluna möhkəm cansağlığı, doğma və yaxınlarının əhatəsində firavan həyat arzulayıram".

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Qazax rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Əlibaba Məmmədovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Əlibaba Balaəhməd oğlu Məmmədov "Şərəf" ordeni ilə təltif edilsin.

# Belarus Prezidenti Polad Bülbüloğlunu təbrik edib

***Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan SSR-in Xalq artisti, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunu 75 illik yubileyi münasibətilə təbrik edib. AZƏRTAC BelTA agentliyinə istinadla xəbər verir ki, məlumatı Belarus liderinin mətbuat xidməti yayıb.***



Təbrik məktubunda deyilir: "Tanınmış müğənni və bəstəkar, gözəl aktyor və pedaqoq, qüsursuz avtoriteti və əla insani keyfiyyətləri olan siyasətçi kimi Siz öz işinə sonsuz sədaqət və məsuliyyətli münasibət nümunəsi olmusunuz. Sizin yüksək peşəkarlığınız, zəngin təcrübəniz və bilikləriniz uzun illər ərzində həqiqi mədəni dəyərlərin təbliğinə və Belarus, Azərbaycan və Rusiya arasında dialoqun daha məzmunlu olmasına yönəlib".

Aleksandr Lukaşenko əmin olduğunu bildirib ki, Polad Bülbüloğlunun gerçəkliyin müdrik dərk edilməsi və xeyirin təntənəsinə inamla müşayiət olunan çoxşaxəli fəaliyyəti gələcəkdə də insanlara sevinc və ilham bəxş edəcək, yüksək əxlaqi meyarlara cavab verəcək. Prezident ona möhkəm cansağlığı, xoşbəxtlik, yeni uğurlar və nailiyyətlər arzulayıb.

# Yevgeni Kozyak: Azərbaycanda seçkiöncəsi proses qanunauyğun şəkildə aparılır



***MDB müşahidə missiyası Milli Məclisə keçirilən seçkilərlə bağlı monitorinqini davam etdirir. MDB müşahidəçiləri Qəbələ, İsmayıllı, Oğuz, Şamaxı, Şəki rayonlarında və Naxçıvan Muxtar Respublikasındakı dairə seçki komissiyalarının işi ilə tanış olublar. Müşahidələr zamanı seçki öncəsi prosesin qanunauyğun şəkildə aparıldığını gördük.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında MDB müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Kozyak bildirib. O qeyd edib ki, seçki komissiyalarının üzvləri müşahidəçilərə seçici siyahılarının yenilənməsi, seçki komissiyasının üzvlərinin təlimi, habelə seçicilərə səsvermə məntəqəsinin ünvanı, səsvermə vaxtı və siyahıdakı seçicinin nömrəsi barədə bildirişlərin göndərilməsi barədə məlumat veriblər. Missiya nümayəndələri seçki komissiyalarının iclaslarının protokolları və seçkilərlə əlaqəli digər sənədlərlə tanış olmaq imkanı əldə ediblər. Y.Kozyak qeyd edib ki, dairə və məntəqə seçki komissiyalarının rəhbərliyi və üzvləri ünsiyyətə açıqdırlar, seçki kampaniyasının keçmiş mərhələləri barədə lazımi məlumat verirlər. Komissiyaların binaları ofis avadanlığı, ehtiyat enerji mənbələri, lazımi metodiki ədəbiyyat və seçkilərlə bağlı əyani vəsaitlərlə təmin edilib.

Onun sözlərinə görə, missiya və Beynəlxalq Demokratiyanın İnkişafı, Parlamentarizm və Vətəndaşların Seçki hüquqlarına Müşahidəsi İnstitutunun ekspertləri Azərbaycan Respublikasının seçki qanununun təhlilini tamamlayıb. Missiya yekun sənəddə səsvermə günündən sonra seçki hüququ ilə bağlı rəyini bildirəcək. Yevgeni Kozyak əlavə edib ki, MDB müşahidə missiyasının formalaşdırılması başa çatıb. Müşahidə missiyası Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan, habelə MDB üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyasını, Belarus və Rusiya İttifaqı Parlament Assambleyasını təmsil edən 252 nəfərdən ibarətdir.

# Filip Jüj: "Azərbaycan xalçalarından ruhlanaraq xalça toxumağı öyrəndim"

Heydər Əliyev Fondunun "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı xalça sərgisi layihəsi ilk dəfə Kann şəhərində nümayiş olunub. Azərbaycan xalçalarını görəndə heyran oldum. Sərgini hər gün ziyarət edir və hər dəfə yeni bir şey kəşf edirdim. Getdikcə xalçalara daha da bağlanırdım. Bu sözləri Heydər Əliyev Fondu tərəfindən UNESKO-nun baş qərargahında təşkil edilmiş "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərginin ziyarətçisi, Kann şəhər sakini Filip Jüj AZƏRTAC-a müsahibəsində deyib.

"Azərbaycan xalçalarını görəndə heyranlığımı gizlədə bilmədim. Hər gün sərgiyə gəlirdim. Xalçalarla daha yaxından



tanış olmağa başladım və beləliklə, xalça dünyasına qərq oldum. Hiss edirdim ki, xalçaya məhəbbətim, marağım artır. Belə gözəlliyi özüm yaratmaq fikrinə düşdüm və Azərbaycana getdim. Azərbaycan xalçalarından ruhlanaraq xalça toxumağı öyrəndim", -deyə F.Jüj bildirib. F.Jüj Azərbaycana gəlişi, xalça toxumaq stajı keçməsindən söz açaraq, xalça rəssamı Eldar Mikayılzadə ilə görüşündən, Şəkiyə səfərindən, Xan Sarayı ilə tanışlığından danışıb. Qeyd edib ki, xalça sənətinin sirlərini öyrənmək üçün yenidən ölkəmizə gəlmək istəyir. Evində qurduğu xalça dəzgahından danışaraq, toxuduğu 2 xalçanı göstərib. Yeni daha gözəl xalçalar toxuyacağını diqqətə çatdırıb.




# Azərbaycanın beynəlxalq aləmdəki imzası mötəbərliliyi ilə seçilir

## Azərbaycan Prezidenti: "Sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir"

***Fevralın 3-də "Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunları ilə bağlı keçirilən müşavirədə çıxışı zamanı Prezident İlham Əliyev regionların dördüncü Sosial-İqtisadi İnkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunları, cari ildə görüləcək işlər haqqında danışaraq bildiribki dördüncü proqram əvvəlki dövrlərdə qəbul edilmiş proqramların məntiqi davamıdır. Bundan sonra da ölkəmizin gələcək inkişafı üçün daha gözəl imkanlar yaranacağı qeyd olunub.***

### Ardıcıl və düşünülmüş siyasi kurs

Bəli, keçirilən müşavirədə dövlət başçısı çıxışında son 16 il ərzində əldə olunan nailiyyətlərlə bağlı konkret faktlar və rəqəmlərlə Azərbaycanın bu illər ərzində kosmik dövlətə çevrildiyini bildirdi. Bu uğurlar, sözsüz ki, ölkə liderinin ardıcıl və düşünülmüş siyasi kursunun reallıqlarıdır: "Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilib. Bizim üç peykimiz var, 16 il bundan əvvəl bu, bəlkə də bizim yuxumuza da gəlməzdi. Amma bu gün bu, reallıqdır. Nəinki üç peykimiz var, hətta iki ildən sonra dünyanın aparıcı tədbiri - Dünya Astronavtika Konqresi də Bakıda keçiriləcək, təxminən 50 ildən sonra. Çünki birinci dəfə Sovet İttifaqında da yeganə konqres 1973-cü ildə Bakıda keçirilmişdir. İndi 49 ildən sonra bu tədbir yenə də Bakıda, amma müstəqil Azərbaycan dövlətinin paytaxtı olan Bakıda keçiriləcək".

Dövlət başçısı nəqliyyat sahəsindən danışarkən bildirib ki, yeddi aeroport tikilib: "Onların altısı beynəlxalq aeroportdur. Davosun hesabatında Azərbaycan hava xidmətlərinə görə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Aeroportu artıq beşulduzlu aeroport kimi tanınır. Dünyada belə aeroportların sayı təqribən 10-na yaxındır. Onlardan biri də Heydər Əliyev Aeroportudur".

Bakı-Tbilisi-Qars dəmir yolunu tarixi qələbə adlandıran dövlət başçısı bu yolun beynəlxalq əməkdaşlığın genişlənməsində ən mühüm layihə olduğunu da bildirib: "Təkcə ona görə yox ki, Ermənistan əbədi dalanda qaldı. Halbuki bu da vacib məsələdir. Ona görə ki, indi bu yol həm böyük gəlir gətirir, həm də beynəlxalq əməkdaşlığı genişləndirir. İndi bu yol ilə onu tikməyə başlayanda nəzərdə tutulmayan yerlərdən də yüklər daşınır. Yəni, bu yol beynəlxalq əməkdaşlıq üçün çox önəmli infrastruktur layihəsinə çevrilib və Azərbaycan burada aparıcı ölkədir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında biz xüsusi rol oynamışıq. Biz o ölkəyik ki, hər iki layihədə iştirak edirik. Ələt Beynəlxalq Dəniz Limanı Xəzərdə ən böyük dəniz limanıdır. Gəmiqayırma zavodu bizim üçün tankerlər, yük gəmiləri və istənilən gəmini istehsal edə bilər. İndi pulumuz Azərbaycanda qalır, xaricə getmir. Biz indi tankerləri, yük gəmilərini özümüz istehsal edirik. Mən ancaq 16 il ərzində görülmüş işlərin əsas məqamlarını qeyd edirəm".

Prezident İlham Əliyev energetika, neft-qaz sahəsindən danışarkən deyib ki, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilib: "Bunlar tikilməsəydi, kim gəlib Azərbaycanın neft sənayesinə, özü də dənizdən çıxarılacaq neftə pul qoyardı? Heç kim. Sıfır investisiya olacaqdı. Nə edəcəkdik? Xaricdən neft alacaqdıq. Biz bu kəmərləri mürəkkəb geosiyasi vəziyyətdə inşa etdik, minimum risklərlə. Sonra Bakı-Tbilisi-Qars dəmir yolu tikildi. Çünki o kəmərlər tikilməsəydi, o dəhliz açılmasaydı, dəmir yolu dəhlizi də heç vaxt olmazdı. Bu yolu tikməyə bizim pulumuz da olmazdı. Gürcüstana 800 milyon dollara yaxın kredit verməyə də gücümüz olmazdı. Ondan sonra Cənub Qaz Dəhlizi. Bu da Avropanın ən böyük infrastruktur layihələrindən biridir, bunun təxminən 40 milyard dollar maliyyəsi vardır. Bir neçə ölkəni birləşdirir, 3500 kilometr uzunluğunda dörd seqmentdən ibarət nəhəng layihədir. Burada həm siyasi məharət, həm diplomatik addımlar, həm iqtisadi gücümüz, həm də beynəlxalq banklarla əlaqələrimiz, bu yolboyu yerləşən ölkələrlə səmərəli əməkdaşlığımız, bütün bunlar rol oynayıb. Bu layihəni həyata keçirmək üçün nə qədər çətinliklər olub. Bu barədə danışmaq üçün ayrıca bir tədbir lazımdır. Amma biz bunu da başa çatdırmışıq. Təşəbbüskar da Azərbaycandır. Artıq bir neçə ildir ki, Azərbaycanda ənənəvi olaraq Cənub Qaz Dəhlizi Məşvərət Şurası keçirilir. Növbəti Şuranın toplantısı bu ayın sonunda keçiriləcək".

Azərbaycan Prezidenti vurğulayıb ki, bu layihələrin aparıcı qüvvəsi, təşəbbüskarı, təşkilatçısı, əsas maliyyə yükünü öz üzərinə götürən ölkə bizik - Azərbaycandır və bunu etmişik: "Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyır. Bu layihələrin, ümumiyyətlə, görülən işlərin hamısı Azərbaycan xalqı qarşısında böyük xidmətlərdir. Çıxışımın əvvəlində dediyim kimi, uğurlu inkişafımızı, sabitliyi şərtləndirən, cəmiyyətdə xoş əhval-ruhiyyəni formalaşdıran bizim siyasətimiz və addımlarımızdır. Nəyi demişiksə, onu da etmişik. Bir dənə də icra edilməmiş vəd yoxdur. Heç kim bunu tapa bilməz. 2003-cü ildə və ondan sonrakı illərdə nəyi demişəmsə, onu da etmişəm. Ona görə bizim sözümüzə də, işimizə də xalq tərəfindən böyük inam var. Mən həmişə demişəm ki, bizim sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir".

### Regionun ən güclü LİDERİ

Dünyanın digər beynəlxalq mərkəzləri və sorğu agentliklərinin də apardığı tədqiqatları, onların Azərbaycanla bağlı gəldikləri qənaətlər bir daha göstərir ki, regionun ən güclü LİDERİ Cənab İlham Əliyevdir. Azərbaycan Prezidenti Cənubi Qafqazda ardıcıl uğurlu siyasət həyata keçirən və bu zaman regionun maraqlarını praqmatik şəkildə nəzərə almağı bacaran yeganə dövlət başçısıdır.

Dövlət başçısı İlham Əliyevin yeritdiyi siyasətdə iqtisadi müstəqillik və hakimiyyətlə xalqın birliyi ideyası bütövlükdə müstəqil siyasətin təməlində durur. Konkret desək, müstəqil siyasət kursunun real əsasları vardır. Burada iqtisadiyyat sahəsində müstəqil siyasət yeritməklə daxildə hakimiyyətlə vətəndaşların birliyi məsələsi mühüm yer tutur. Bu da özlüyündə çoxlu sayda vəzifələri - sabit cəmiyyət modelini, vətəndaş həmrəyliyini, hakimiyyətin şəffaflığını və demokratik idarəetmənin bərqərar olmasını ön plana çıxarmaq deməkdir. Prezident İlham Əliyev bütün bu məqamları dövlətin suverenliyini təmin etməyə imkan verən səviyyədə vəhdət halında reallaşdırmağa qadir, nəzəri və praktiki qüdrəti olan yeganə siyasətçidir. Bu kimi proqramların reallaşdırılması balanslaşdırılmış xarici siyasət kursu olmadan mümkün deyildi.

Beləliklə, yuxarıda qeyd olunan uğurlu nailiyyətlər, məhz dövlət başçımızın dedyi kimi: "Sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir".

**R.KAMALQIZI**

## "Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacaq"



"Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib. Ümumilikdə Azərbaycanda həyata keçirilən regional islahatlarla bağlı olan bu müşavirədə elə bir sahə qalmadı ki, cənab Prezident ona toxunmasın". Bunu SİA-ya Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib.

Komitə sədrinin sözlərinə görə, ölkə başçısı bank sektorundan tutmuş, iqtisadiyyatın digər sferalarına qədər bütün məsələlərdən danışdı və lazımi tapşırıqlarını verdi: "Cənab Prezident hər bir yerdə vətəndaşların yaxşı yaşaması üçün digər strukturlara xəbərdarlıq etdi ki, vətəndaşı aldatmaq olmaz, vətəndaşın hüququnu pozmaq olmaz, vətəndaşın pensiya sisteminə hansısa bir xələl gətirmək olmaz. Onun sağlamlığı, müayinəsi, tibbi sığortası ilə bağlı məsələlər öz əksini tapmalıdır. Onun vəsaitlərinin tam qarantiyası verilməlidir ki, onların banklara etibarlılığı yaransın. Kiçik və orta biznesin inkişafı, güzəştli kreditlərin verilməsi, bəzi sahibkarların torpaq sahəsini alıb saxlaması, istifadəyə verməməsi və nəticədə yeni iş yerlərini açmaması, yeni iş yerlərində çalışan insanların ixtisarlara salınmasının qarşısının alınması və s. orada cənab Prezident tərəfindən Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəsinin bilavasitə şahidi olduq. Hesab edirəm ki, bu gələcəyə atılmış çox ciddi və böyük bir addımdır. Bu cənab Prezidentin insanlar, cəmiyyət qarşısında birbaşa hesabatı idi. Bu baxımdan hesab edirəm ki, çox düzgün olan və dəqiq seçilmiş bir strategiya ilə Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacaq".

*Ceyhun Rasimoğlu*

## Polad Bülbüloğlu: Şah əsərim Qarabağ haqqında yazacağım Qələbə marşı olacaq



Çox duyğuluyam. Bu gün ötən 75 ildə ən gözəl ad günümü keçirirəm. Əsgərlərlə birgə, Qarabağa yaxın bir yerdə. Buradan Qarabağ dağları görsənir. Əsgərlərlə bir yerdə yemək yedik, çay içdik, tort kəsdik, rəqs etdik. Bundan xoşbəxt gün tapmaq çətindir. Şah əsərim Qarabağ haqqında yazacağım Qələbə marşı olacaq. Bu marşı özüm ifa edəcəyəm. Arzum budur ki, biz Qarabağa, Şuşaya qayıdaq və Cıdır düzündə gözəl tədbirlər keçirək. Xarı Bülbül festivalını yenidən təşkil edək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Rusiyadakı səfiri, bəstəkar və müğənni Polad Bülbüloğlu Beyləqanda "N" saylı hərbi hissədə olarkən jurnalistlərə müsahibəsində söyləyib.

Polad Bülbüloğlu deyib: "Biz bu nümunəni Prezident İlham Əliyevdən götürürük. O, doğum gününü əsgərlərlə, məcburi köçkünlərlə birgə keçirir. Prezident gözəl bir ənənə yaradıb. Mən də hələ yay aylarında düşünürdüm ki, Prezidentdən nümunə götürüb ad günümü əsgərlərlə bir yerdə qeyd edim. Dünən Prezidentimiz mənə "Heydər Əliyev" ordenini təqdim etdi. Ünvanıma çox gözəl sözlər dedi. Mən də fürsətdən istifadə edərək, işimə, yaradıcılığıma qiymət verdiyi üçün dövlətimizin başçısına dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, dünən qızım dedi ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da "Instagram" səhifəsində məni təbrik edib. Mehriban xanıma da dərin təşəkkürümü bildirirəm. Çox duyğulandım".

## "Təbliğat kampaniyası yüksək fəallıq, sağlam rəqabət şəraitində keçir"



"Bu gün ölkəmiz çox mühüm siyasi kampaniya-parlament seçkiləri ərəfəsindədir. Hazırda deputatlığa namizədlərin təbliğat-təşviqat prosesi gedir. Özü də kifayət qədər yüksək əhval-ruhiyyə və fəal şəkildə. Təxminən 40-dan çox KİV ödənişli təşviqatda iştirak etmək üçün MSK-ya müraciət edib. Namizədlər bu KİV-lər, xüsusilə sosial şəbəkələr vasitəsilə öz təbliğatlarını qurur, qanunvericiliyin onlara verdiyi imkanlardan maksimum səviyyədə yararlanmağa çalışırlar. Hesab edirəm ki, bu, ölkədəki aktiv siyasi mühitin, eyni zamanda, seçkilərə olan marağın göstəricisidir". Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə Milli Məclisə keçirilən seçkilərdə iştirak edən bəzi müxalifət partiyalarının qərəzli iddialarına münasibət bildirib. Qeyd edib ki, guya seçicilərlə görüşlərin təşkilində hansısa pozuntulara yol verilir, seçicilər ələ alınır və s. bu kimi iddialar irəli sürülür: "Sözsüz ki, bu gün dünyanın heç bir ölkəsində, hətta özlərini "demokratiyanın beşiyi" adlandıran dövlətlərdə belə "ideal seçki" deyilən bir şey yoxdur. Təbii ki, ölkəmizdə keçirilən siyasi kampaniya ərəfəsində hansısa kiçik nöqsanlara rast gəlmək ehtimalı ola bilər. Ancaq bunlar ciddi və kütləvi pozuntular deyil və seçki prosesinə təsir etmir. Seçkilərdə iştirak üçün 2431 nəfər müraciət edib, onlardan 1374 nəfəri qeydə alınıb. Bu namizədlərin arasında qızğın mübarizə gedir. Bəzən bu mübarizə zamanı hansısa çatışmazlıqlar müşahidə edirik. Lakin dövlət öz üzərinə düşən işi yüksək səviyyədə yerinə yetirir və bütün namizədlərə bərabər imkanlar yaradılır".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, hazırda beynəlxalq aləmdə də Azərbaycanda keçirilən parlament seçkilərinə maraq böyükdür: "Bildiyimiz kimi, seçkiləri izləmək üçün 50-dən artıq ölkəni təmsil edən 694 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Qeydiyyatdan keçən yerli müşahidəçilərin sayı isə 61813 nəfərə çatıb. Sözsüz ki, bu göstəricilər seçkilərə beynəlxalq birliyin, eləcə də ölkə daxilindəki insanların yüksək marağının, diqqətinin göstəricisidir. Şübhəsiz ki, bütün siyasi kampaniyalar kimi, budəfəki parlament seçkiləri də kifayət qədər demokratik, şəffaf şəkildə keçiriləcək və bu məqamlar beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapacaq".

Vüqar Rəhimzadə vurğulayıb ki, bəzi müxalifət nümayəndələrinin təbliğat-təşviqat prosesi ilə bağlı neqativ, qərəzli fikirləri real faktlara söykənmir və obyektivlikdən uzaqdır: "Bu gün YAP-ın namizədləri ilə yanaşı, cəmiyyət arasında nüfuzu olan şəxslər də bitərəf olaraq seçkilərə qatılıblar və fəal təbliğat kampaniyası həyata keçirir, seçicilərlə görüşür, platformaları barədə məlumat verirlər. Lakin heç bir sosial bazası, insanlar arasında nüfuzu olmayan bəzi müxalifət partiyalarının namizədləri ənənəvi olaraq qərəzli iddialar səsləndirir, onsuz da məğlub olacaqlarını bilərək sığortalanmağa çalışırlar. Lakin bütün bunlar əbəsdir. Çünki sadə insanlar, seçicilər real fəaliyyətə, onların problemləri ilə maraqlanan və həllinə çalışan namizədlərə səs verirlər. Bu mənada hesab edirəm ki, təbliğat kampaniyası yüksək fəallıq, sağlam rəqabət şəraitində keçir və hər kəsə bərabər imkanlar yaradılır".

*Ceyhun Rasimoğlu*

## Bəhruz Quliyev: "Azərbaycanda sahibkarlıq sahəsi yaxın zamanlarda daha böyük uğurlara imza atacaq"



"Azərbaycanda sahibkarlığın inkişafı və bu reallığın təməlində dayanan yüksək iqtisadi mühit yaxın gələcəkdə bu sahənin daha böyük nailiyyətlərə imza atacağı reallığını ortaya qoyur". Bu fikirləri Olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin Azərbaycan regionlarının dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş iclasında irəli sürdüyü fikirlərini şərh edərkən deyib.

Onun sözlərinə görə, məhz sahibkarlığa göstərilən dövlət diqqəti və qayğısı əsasən, qeyri-neft sektorunun inkişafına öz töhfələrini verir: "Kənd təsərrüfatının maldarlıq, tütünçülük, pambıqçılıq, baramaçılıq və s. istiqamətlərdəki rentabelli inkişafı da bu fikirləri təsdiq edir. Bu baxımdan da deyə bilərik ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar daha geniş vüsət almış və sosial-iqtisadi inkişaf sahəsində keyfiyyətcə yeni - davamlı inkişaf mərhələsinə keçidin təməli qoyulmuşdur. Eyni zamanda, yeni mərhələnin əsas hədəfi, iqtisadi səmərəlilik, sosial ədalətlilik və ekoloji təhlükəsizlik prinsiplərini rəhbər tutmaqla, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası əsasında uzunmüddətli perspektivdə ölkədə əldə olunmuş dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Bütün bunlar bir vəhdət şəklində sahibkarlığın təməlli tərəqqisini ehtiva etməkdədir".

"Bu amillərlə yanaşı, son illərdə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərindən istifadə etmə qaydalarında müsbət dəyişikliklər edilib ki, bu qaydalara əsasən, sahibkarlara verilən güzəştli kreditlərin məbləği artırılıb, eyni zamanda, sahibkarlıq subyektlərinə verilən kreditlərin ümumi həcmi artıb", deyən Bəhruz Quliyev onu da vurğulayıb ki, bununla iş adamlarının kreditlərə çıxış imkanları daha da yüksəlib ki, bu faktor sözügedən sahənin dinamikliyinə müsbət impulslarını verir: "Ölkə başçısının bütövlükdə sözügedən iclasda bu məsələnin üzərində dayanması və önəmli mesajlarını verməsi də sübut edir ki, Azərbaycanda sahibkarlıq sahəsi yaxın zamanlarda daha böyük uğurlara imza atacaq".

## İordaniya səfiri: AZƏRTAC və Petra agentliyi arasında əlaqələrin yeni müstəviyə keçməsini dəstəkləməyə hazırıq



AZƏRTAC ilə İordaniyanın Petra informasiya agentliyi arasında tərəfdaşlığın yeni müstəviyə keçməsi informasiya və təcrübə mübadiləsini gücləndirə bilər. AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə İordaniya Haşimilər Krallığının Azərbaycandakı səfiri Sami Ğoşehin görüşündə iki ölkə arasındakı əlaqələrdən danışılıb, informasiya sahəsində əməkdaşlıq, birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Görüşdə qeyd edilib ki, Azərbaycan və İordaniya arasında əlaqələrin əsası ulu öndər Heydər Əliyev və Kral Hüseyn ibn Təlal tərəfindən qoyulub. "Dövlət başçıları Prezident İlham Əliyev və Kral II Abdullah ibn Al Hüseyn əməkdaşlığın bütün istiqamətlərdə genişləndirilməsinə böyük önəm verirlər. İnformasiya sahəsində də əlaqələr möhkəmlənir. AZƏRTAC və Petra 2007-ci ildə tərəfdaşlıq müqaviləsi imzalayıb. Agentliklər ikitərəfli qaydada və beynəlxalq informasiya təşkilatlarında sıx əməkdaşlıq edir. Belə qurumlardan biri də AZƏRTAC-ın Şura üzvü olduğu İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyidir (UNA). İnformasiya texnologiyalarının hazırkı sürətli inkişafını nəzərə alaraq agentliklərimiz müasir dövrün tələblərinə cavab verən daha yeni müqavilə imzalaya bilər", - deyə Aslan Aslanov vurğulayıb.



Təkcə Azərbaycanda deyil, dünyada baş verənlərlə bağlı məlumatları AZƏRTAC-dan aldığını deyən Sami Ğoşeh agentliyin xəbərlərinin dəqiqliyi və səlisliyi ilə seçildiyini qeyd edib. "Petra agentliyi ilə əlaqələrin yeni müstəviyə keçməsinə dəstək verməyə hazırıq. AZƏRTAC-ın əməkdaşları İordaniyanı, Petra-nın jurnalistləri isə Azərbaycanı ziyarət edərək maraqlı reportajlar hazırlaya bilərlər. Təcrübə mübadiləsi hər iki tərəf üçün səmərəli olar", - deyə diplomat bildirib. Görüşdə səfirə AZƏRTAC-ın informasiya, video və foto xidmətləri barədə məlumat verilib, səfirliyin fəaliyyətinin işıqlandırılması, birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.



# Qürurumuz, iftixarımız - Azərbaycan BAYRAĞI

***Bayraq qürurumuz, iftixar hissimizdir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, “Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir”. Müasir dünyada müstəqil Azərbaycan dövlətinin rəmzləri onun dövlətçilik əlaməti olmaqla yanaşı, ölkənin tarixi keçmişindən gələn və gələcəyə istiqamətlənən özünəməxsusluğunu əks etdirir.***

> *Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı.*
>
> ***Heydər Əliyev***

Azərbaycan Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağı siyasi-ideoloji və mənəvi baxımdan əhəmiyyətlidir. Göy, qırmızı, yaşıl rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət üçrəngli bayraq Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.

Azərbaycan Respublikasının rəsmi simvollarından biri olan Azərbaycan Bayrağı tarixin bu günü - 5 fevral 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti tərəfindən təsdiq edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra üçrəngli bayrağımız endirildi. Yalnız 71 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı. Düz 71 il sonra Ümummilli Lider Heydər Əliyevin uzaqgörən zəkası və əzmi ilə Naxçıvanda dalğalandırıldı. 1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsdiq edilib. Qeyd etdiyimiz kimi, 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti bu bayrağın yenidən Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: “Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı”.

## BAYRAĞIMIZ ÜZƏRİNDƏKİ HƏR BİR RƏNG AZƏRBAYCAN TARİXİNDƏN DANIŞIR

Bayrağımızda olan hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng, Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə, islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Deməli, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlıq olan üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir Azərbaycan vətəndaşının üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik ideallar püxtələşir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib.

Ölkəmizdə qürurverici bir haldır ki, Dövlət Bayrağı Günü qeyd olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan Bayrağının vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. İllər uzunu müstəqilliyə doğru gələn yolda Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə qaldırıldı. Ulu Öndər Heydər Əliyev deyirdi: “Gərək hər bir evdə Azərbaycan Bayrağı olsun, hər bir ailə Azərbaycan Bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun”.

## BAYRAQLARI BAYRAQ YAPAN ÜSTÜNDƏKİ QANDIR...

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı milli suverenliyin simvolu və rəmzi kimi təsdiq olunub, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. “Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir”, - deyən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bu gün Azərbaycanın hər bir yerində dalğalanan Dövlət Bayrağının Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra işğal altında olan torpaqlarda qaldırılacağına əminliyini bildirib: “Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndində, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.

Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq şərəfli mübarizəyə qoşulur, Vətənin azadlığı uğrunda övladını qurban vermiş valideynlər şəhid cənazəsinə bükülmüş müqəddəs bayraqla təskinlik tapırlar. “Bayraqları bayraq yapan üstündəki qandır, Torpaq, uğrunda ölən varsa, vətəndir”. Budur, bayrağın müqədəsliyi və bayrağımıza olan sevgi.

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, böyük iftixar və azadlığın dərin hisslərini yaşadır.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

# Belkıs Yakıcı: “Azərbaycanda keçiriləcək parlament seçkiləri cəmiyyətin siyasi həyatına yeni rəng qatacaq”

***Azərbaycanda müasirləşmə istiqamətində böyük addımlar atılıb. Prezident İlham Əliyevin apardığı son islahatlar müasirləşmənin tərkib hissəsidir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan İş və Məslək Sahibi Qadınlar Dərnəyinin sədri Belkıs Yakıcı bildirib. O qeyd edib ki, Azərbaycan tam sabit və təhlükəsiz ölkədir. Xarici iş adamlarının ölkəyə investisiya yatırması üçün dövlət tərəfindən bütün imkanlar yaradılıb.***




Azərbaycanda keçiriləcək parlament seçkilərinin cəmiyyətin siyasi həyatına yeni rəng qatacağını vurğulayan Belkıs Yakıcı deyib ki, Azərbaycan dünyadakı siyasi nüfuzunu artırır. Parlament seçkilərində qadın namizədlərin sayının artması sevindirici haldır. O diqqətə çatdırıb ki, gələcəkdə sahibkar qadınların parlamentdə çoxluq təşkil etməsi Azərbaycanın ticarət əlaqələrini daha da genişləndirə bilər.

“Mənim rəhbərlik etdiyim dərnəkdəki qadın sahibkarların Azərbaycanla bağlı investisiya maraqları böyükdür. İnvestisiya yatırmaq üçün Azərbaycanda geniş imkanlar mövcuddur”, - deyə o əlavə edib. B.Yakıcı bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar Azərbaycanın dünyadakı nüfuzunu daha da möhkəmləndirir, ölkənin iqtisadi imkanlarını genişləndirir.

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## Seçicilər Oqtay Əsədovu dəstəkləyirlər



Yeni Azərbaycan Partiyasından 45 saylı Abşeron Seçki Dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Oqtay Əsədovun vəkillərinin seçicilərlə görüşləri davam edir. Növbəti görüş Abşeron rayonu, Mehdiabad qəsəbəsində keçirilib. Görüşdə 9 fevral 2020-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək parlament seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən 45 saylı Abşeron Seçki Dairəsindən deputatlığa namizəd Oqtay Sabir oğlu Əsədovun vəkilləri ölkə Prezidenti İlham Əliyevin Abşeron rayonuna olan diqqət və qayğısından, rayonun mövcud problemlərindən danışıb, o cümlədən, seçicilərin problemləri ilə maraqlanıblar.

Görüşdə çıxış edən seçicilər də 9 fevralda fəal olacaqlarını və ölkə Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədi Oqtay Əsədova səs verəcəklərini bildiriblər.

***Rövşən RƏSULOV***

## Masallı seçiciləri Məşhur Məmmədovu böyük sevinclə qarşılayıb





Yeni Azərbaycan Partiyasının 70 saylı Masallı şəhər seçki dairəsindən deputatlığa namizədi Məşhur Məmmədov Masallı şəhərində seçicilərlə növbəti görüşünü keçirib. Görüşdə çıxış edən deputatlığa namizəd Məşhur Məmmədov əvvəlcə YAP-ın seçki proqramı haqqında, həmçinin ölkəmizdə həyata keçirilən sosial-iqtisadi, hüquqi və struktur islahatları barədə seçicilərə məlumat verib. O, seçiciləri fevralın 9-da keçiriləcək parlament seçkilərində öz seçki hüquqlarından istifadə etməyə və fəal olmağa çağırıb. Məşhur Məmmədov, həmçinin seçicilərinin "Daha güclü Azərbaycan naminə!" şüarı ilə təbliğat-təşviqat kampaniyası aparan YAP-ın namizədinə səs verəcəklərinə əminliyini bildirib.

Seçicilərlə görüşü zamanı Məşhur Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu inkişafdan danışıb: "Respublikamızın bölgələrinin də sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir. Bilirsiniz ki, indiyə qədər regionların sosial-iqtisadi inkişafına dair dörd Dövlət Proqramı qəbul olunub. Bu günlərdə Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının I ilinin yekunlarına həsr olunan konfransda da bildirildi ki, həyata keçirilən proqramlar çərçivəsində bütün regionlarda, o cümlədən, Masallıda da böyük quruculuq işləri həyata keçirilib".

Məşhur Məmmədov, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hərtərəfli islahatların həyata keçirildiyini də diqqətə çatdırıb. Onun sözlərinə görə, siyasi, sosial-iqtisadi, mədəni-humanitar nailiyyətlərimizin hər biri, məhz ardıcıl və sistemli islahatların nəticəsində mümkün olub.

Görüşdə çıxış edən seçicilər 9 fevral parlament seçkilərində daha güclü Azərbaycan naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bəyan ediblər.

***RƏFİQƏ KAMALQIZI***

## Rauf Əliyevin seçicilərlə görüşləri davam edir

Fevralin 4-də Şağan Olimpiya İdman Kompleksində Yeni Azərbaycan Partiyası tərəfindən 13 saylı Xəzər - Pirallahı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülən Rauf Əliyevin 9 fevral parlament seçkilərində səs verəcək seçiciləri və idmançılar ilə görüşü keçirilib. Tədbirdə YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, Olimpiya və dünya çempionu Fərid Mansurov, əməkdar məşqçi, Güləş Federasiyasının vitse-





prezidenti Elçin Cəfərov və SSRİ çempionu və spartakiada qalibi Firudin Qurbanov iştirak və çıxış ediblər. Görüşdə Milli Məclisə deputatlığa namizəd Rauf Əliyev çıxış edərək hesabat dövrü ərzində fəaliyyəti barədə görüş iştirakçılarına məlumat verib. Tədbirdə çıxış edən seçicilər Rauf Əliyevin deputat olduğu zaman göstərdiyi fəaliyyətini yüksək qiymətləndirərək 9 fevral 2020-ci il tarixdə keçiriləcək parlament seçkisində ona səs verəcəklərini bildiriblər.

***Rövşən RƏSULOV***

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## Mahir Abbaszadə Laçın obalarında görüşlər keçirib





***121 saylı Laçın Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Mahir Abbaszadənin Ağcəbədi rayonu Taxtakörpü qəsəbəsi ərazisində yerləşən Qarıqışlaq, Alxaslı, Fingə, Mişni və Ərdəşəvi obalarında müvəqqəti məskunlaşmış Laçın sakinləri ilə görüşü keçirilib.***

Görüşdə çıxış edən deputatlığa namizəd ölkədə həyata keçirilən islahatlardan danışıb, özünün bundan əvvəlki deputat fəaliyyəti barədə seçicilərə məlumat verib. Mahir Abbaszadə ötən seçkilərdən bəri təkcə Taxta Körpü ərazisində seçicilərlə 21 dəfə görüşdüyünü, onların müraciətlərini, təklif və iradlarını dinlədiyini, qaldırılan problemlərin həllinə çalışdığını bildirib.

O, həmçinin qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyilə ölkədə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və sosial təminatının gücləndirilməsi istiqamətində böyük işlər görülür. Ötən ilin sonunda Taxta Körpü ərazisindəki Qarakeçdi, Vağazin, Şeylanlı və Katos obaları üçün 645 evlik 3 yeni qəsəbənin salındığını deyən M.Abbaszadə, ağır şəraitdə yaşayan digər obalar üçün də gələcəkdə mərhələlərlə yeni qəsəbələrin inşa ediləcəyini bildirib. M.Abbaszadə və görüş iştirakçıları Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad ediləcəyinə, Böyük Qayıdış proqramının həyata keçiriləcəyinə inamlarını ifadə ediblər. Seçicilər M.Abbaszadənin ötən çağırış zamanı fəaliyyətini yüksək qiymətləndirib, onların müraciətlərinin müsbət həlli üçün çalışdığını deyib, onun şəhid ailələri və Qarabağ qazilərinə xüsusi diqqət göstərdiyini vurğuayıblar. Eyni zamanda, Laçın obalarının sakinləri onları narahat edən problemləri qaldırıb və yeni seçiləcək deputatdan gözləntilərini ifadə ediblər.

Mahir Abbaszadə qeyd edib ki, ona yenidən səs verəcəkləri təqdirdə seçicilərinin etimadını doğrultmaq üçün daha çox çalışacaq. Namizəd isti qarşılanmaya və dəstəyə görə seçicilərinə təşəkkür edib, onları fevralın 9-da keçiriləcək seçkilərdə fəal olmağa çağırıb.

**RƏFİQƏ KAMALQIZI**

## Deputatlığa namizəd Kamilə Əliyevanın görüşləri uğurla davam edir





***111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Kamilə Əliyevanın görüşləri davam edir. Kamilə Əliyevanın Zaqatala rayonunun III Tala, Fındıqlı, Maqov, Göyəm sakinləri ilə fərdi görüşləri keçirilib.***



Görüşlərdə çıxış edən Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti, aparılan dərin məzmunlu islahatlar haqqında ətraflı məlumat verib. Bildirib ki, bu islahatlar ölkəmizin inkişafına böyük təkan verməklə yanaşı, insanların sosial rifahının daha da yüksəlməsinə xidmət edir: “Sosial-iqtisadi, məhkəmə-hüquq sistemində aparılan islahatlar ciddi nəticələr verməkdədir, vətəndaşlar islahatların nəticələrini öz həyatlarında hiss edirlər. Aparılan islahatlar insanlarda məmnunluq yaradır”.

Görüşdə çıxış edən Kamilə Əliyeva deputat olduğu dönəmdə göstərdiyi fəaliyyətindən, aparılan dövlət siyasətindən söz açıb. Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatındakı uğurları barədə məlumat verib. Deputatlığa namizəd partiyanın irəli sürdüyü seçki platformasında vətəndaşların hüquq və azadlıqlarının qorunması, ölkə iqtisadiyyatının, səhiyyə, təhsil sahələrinin hərtərəfli inkişafı, sosial rifahın, mənzil şəraitinin yaxşılaşması, ərazi bütövlüyümüzün bərpa edilməsi kimi məsələlər ölkənin prioritet istiqamətləri kimi əsas götürüldüyünü diqqətə çatdırıb.

Görüş zamanı sakinlərin problemləri, şikayət və təklifləri dinlənilib. Deputatlığa namizəd Kamilə Əliyeva qaldırılan məsələlərin təhlil olunaraq, həll edilməsi istiqamətində zəruri addımların atılacağını vurğulayıb.

Görüşlər zamanı seçicilər “Daha güclü Azərbaycan naminə!” şüarı ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyevanı yenidən millət vəkili kimi görmək istədiklərini, seçkilərdə ona səs verəcəklərini bildiriblər.

**ZÜMRÜD BAYRAMOVA**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## Qəribli, Eymur və Qaradeyin seçiciləri Cavid Osmanova səs verəcəklər





***Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 90 saylı Ağdaş Seçki Dairəsindən irəli sürülən Cavid Osmanovun təbliğat-təşviqat kampaniyası Ağdaş rayonunda uğurla davam edir. Deputatlığa namizəd Cavid Osmanovun seçicilərlə növbəti görüşləri rayonun Qəribli, Eymur və Qaradeyin kəndlərində keçirilib.***

Hər üç kənddə seçicilər Cavid Osmanovu və təbliğat qrupunun üzvlərini çox mehribanlıqla qarşılayıblar. Keçirilən görüşləri açan Cavid Osmanov ilk növbədə görüşə gəldikləri və ona böyük dəstək verdikləri üçün seçicilərə öz minnətdarlığını bildirib. Son illər respublikamızda, eləcə də rayonda görülmüş abadlıq-quruculuq işlərininin hər bir ağdaşlının gözü önündə baş verdiyini qeyd edən deputatlığı namizəd Cavid Osmanov bütün bunlara qarşılıq olaraq ağdaşlıların da daim dövlət başçısı İlham Əliyevin ətrafında sıx şəkildə birləşdiyini görüş iştirakçılarının diqqətinə çatdırıb. Ötən dövr ərzində Milli Məclisdəki fəaliyyəti, rayon seçiciləri ilə keçirdiyi görüşlər və gördüyü işlərin də qısa hesabatını seçicilərinin diqqətinə çatdıran Cavid Osmanov seçicilərini əmin edib ki, onu yenidən dəstəkləsələr, növbəti dəfə də onların etimadını doğruldacaq.

Görüşlərdə təbliğat qrupunun üzvlərindən Vaqif Hacıyev, Sevgili İbrahimova və İsmayıl Xuduyev çıxış edərək Cavid Osmanovun rayon sakinlərinin problemlərinin həlli istiqamətində daim əlindən gələni etməyə çalışdığının şahidi olduqlarını, eyni zamanda rayonun ictimai-siyasi həyatındakı fəaliyyətini, sadəliyi və səmimiliyi ilə sakinlərin rəğbətini qazanmasını yüksək qiymətləndirdiklərini vurğulayaraq, 9 fevralda seçiciləri fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanova səs verməyə çağırıblar.

Görüşlərdə çıxış edən seçicilər bildiriblər ki, onlar hər zaman Yeni Azərbaycan Partiyasının Sədri ölkə Prezidenti İlham Əliyevin siyasi xəttini bəyəniblər və bu gün də bu belədir. Odur ki, fevralın 9-da Yeni Azərbaycan Partiyasının namizədi olaraq Cavid Osmanova səs verəcəklər.

Görüşlərdə Cavid Osmanov seçiciləri maraqlandıran suallara ətraflı cavablar verib, onlarla xatirə şəkilləri çəkdirib.

Qaradeyin kəndində keçirilən görüşdən öncə Cavid Osmanov kənd ağsaqqalı Əsgər İsayevin yaşadığı evdə olub, qocaman partiya üzvü və onun ailə üzvləri ilə də görüşüb.

***ZÜMRÜD BAYRAMOVA***

## Nizami Cəfərov seçiciləri ilə görüşlərini davam etdirir





***Yeni Azərbaycan Partiyası tərəfindən 108 saylı Ağstafa Seçki Dairəsi üzrə namizədliyi irəli sürülmüş Nizami Cəfərov rayonun Qıraq Kəsəmən və Eynallı kəndlərində seçicilərlə görüşündə Yeni Azərbaycan Partiyasının seçki platforması barədə məlumat verib.***

Qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində həm partiyamız, həm də dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub: “Aparılan uğurlu islahatlar nəticəsində dövlətimiz gün-gündən inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır və bütün bunlara görə ölkə Prezidenti İlham Əliyevə təşəkkür edirik”.

Nizami Cəfərov çıxışında üzərinə düşəcək vəzifələri layiqincə yerinə yetirəcəyini bildirərək, seçiciləri 9 fevral tarixində keçiriləcək parlament seçkilərində fəal olmağa çağırıb.

Görüşdə çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının namizədi Nizami Cəfərovun 9 fevral parlament seçkilərində qalib gələcəyinə əminliklərini ifadə ediblər.

***RƏFİQƏ KAMALQIZI***

## Elmar Məmmədyarov Polşanın yeni səfiri ilə görüşüb



Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Polşanın ölkəmizə yeni təyin olunmuş səfiri Rafal Poborskini qəbul edib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Polşanın ölkəmizdəki səfiri Rafal Poborskini təyinatı münasibətilə təbrik edib, onun ölkələrimiz arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə ümid etdiyini bildirib.

Görüşdə tərəflər Azərbaycan ilə Polşa arasında iqtisadi, ticarət, nəqliyyat, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Həmçinin əməkdaşlığın humanitar aspektləri müzakirə olunub. Tərəflər ölkələrimiz arasında ən yüksək səviyyədə həyata keçirilən mübadilə və görüşləri qeyd ediblər. Bu xüsusda, Davosda keçirilmiş Dünya İqtisadi Forumu çərçivəsində iki ölkə prezidentlərinin səmimi və səmərəli görüşü zamanı Azərbaycan ilə Polşa arasında nəqliyyat və enerji kimi sahələrdə əməkdaşlığın inkişafının müzakirə edildiyi məmnuniyyətlə vurğulanıb. Səfir Rafal Poborski etimadnaməsinin surətini nazir Elmar Məmmədyarova təqdim edib, diplomatik fəaliyyəti müddətində ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib. Nazir Elmar Məmmədyarov səfirə diplomatik fəaliyyətində uğurlar arzu edib.

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## SƏBAİL

9 fevral tarixində keçiriləcək parlament seçkilərində 29 saylı Səbail Seçki Dairəsi üzrə YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Aytən Hüseynova fevralın 3-də





Səbail rayonunda şəhid ailəsi üzvləri ilə görüşü keçirilib. Görüşdə namizədin səlahiyyətli nümayəndəsi, YAP Səbail rayon təşkilatının Aparat rəhbəri Zəfər Bayramov çıxış edərək rayonda seçki öncəsi aparılan təbliğat-təşviqat işləri haqqında danışıb və A.Hüseynovanın seçki platforması haqqında məlumat verib.

Görüşdə çıxış edən YAP-ın deputatlığa namizədi A.Hüseynova Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan bütün şəhidlərimizin əziz xatirəsi xalqımız və dövlətimiz tərəfindən həmişə əziz tutuduğunu, ən yüksək diqqət və qayğıyla yanaşıldığını bildirib: “Bu gün bütün sahələr kimi, şəhid ailələrinin sosial müavinətləri ildən-ilə yüksəldilir, birdəfəlik ödənişlər həyata keçirilir, onlara mənzillər, nəqliyyat vasitələri hədiyyə olunur. Bütün bu qeyd olunanlar məhz ölkə Prezidenti İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir”. A.Hüseynova keçirdiyi görşlərlə də bağlı məlumat verərək, seçiciləri 9 fevral parlament seçkilərində YAP-ın namizədlərinə səs verməyə çağırıb.

Çıxış edən şəhid ailələrindən Vəkil Qasımov, Sevinc Əliyeva, Əhməd Osmanov və digərləri ölkəmizdə bu kateqoriyalardan olan ailələrə dövlət qayğısı üçün ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürlərini bildiriblər və onlara ayrılan təqaüd və sosial müavinətlərdən razılıqlarını bildiriblər. Çıxış edənlər fevralın 9-da YAP-nın namizədldərinə səs verəcəklərini bildiriblər.

## SABUNÇU

Yeni Azərbaycan Partiyasının 27 saylı Sabunçu İkinci Seçki Dairəsi üzrə deputatlığa namizədi Əliabbas Salahzadə parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşünü Sabunçu qəsəbəsində keçirib.

Seçicilərə seçki platforması və seçiləcəyi təqdirdə deputat kimi qarşıya qoyduğu hədəflər haqqında ətraflı məlumat verən YAP namizədi sakinlərlə onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparıb.

Görüşdə Ə.Salahzadə seçki ərəfəsində olduqlarını və seçicilərin öz seçimlərində fəal olacaqlarına, düzgün mövqe nümayiş etdirəcəklərinə inandığını da söyləyib: “Sizləri layiqli və onların problemlərində yardımçı ola biləcək namizədlərə səs verməyə çağırıram. Azərbaycanın bugünkü in-





kişafı, onun regionun qüdrətli dövlət olaraq, dünyada aparıcı imicinin qorunub, saxlanması naminə xalqın layiqli övladları Milli Məclisin üzvüləri seçilməlidir. Hər birinizi seçki günü ən real namizədlərə səs verməyə çağırıram”.

Keçirilən görüşdə çıxış edənlər 9 fevralda keçiriləcək parlament seçkilərində YAP-ın namizədinə səs verməklə partiyamıza, dövlətimizə, dövlətimizin uğurlu siyasətinə, daha güclü Azərbaycan naminə həyata keçirilən uğurlu siyasətə, ən əsası isə layiqli namizədə səs verəcəklərini bildiriblər.

## XAÇMAZ

9 fevralda keçiriləcək parlament seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Eldəniz Səlimov Xaçmaz 2 saylı məktəbin mikrorayonuna daxil olan ərazinin seçicilərlə görüş keçirib. Görüşü giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xan-Baba-





yev açaraq ölkəmizdə Prezidentimiz tərəfindən aparılan uğurlu islahatlardan danışıb və seçiciləri bu uğurlu inkişafa səs verməyə çağırıb. Görüşdə deputatlığa namizəd Eldəniz Səlimov çıxış edərək ölkə rəhbərlərinin həyata keçirdiyi ardıcıl uğurlu siyasətdən, ölkəmizin inkişafından, insanların rifah halının yaxşılaşmasından, sosial paketin daim həyata keçirilməsindən, ölkə vətəndaşlarına ölkə rəhbəriyi tərəfindən göstərilən diqqət və qayğıdan danışıb. Həmçinin, seçiciləri seçki günü daha fəal olmağa və YAP-nın namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədr müavinləri Yetkin Mehmanov, Sevinc Sədullayeva, seçicilərdən Bəsti Qurbanova, Naibə Atakişiyeva, Nailə Səlimova, Ədilə Heybətova və başqaları 9 fevralda keçiriləcək parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

## OĞUZ

Fevralın 3-də günün ikinci yarısında Milli Məclis seçkilərinə 117 saylı Qğuz-Qəbələ Seçki Dairəsindən deputatlığa namizəd Aqiyə Naxçıvanlının Oğuzda seçicilərlə möhtəşəm görüşü keçirilib. İzdihamlı keçən görüşdə rayon ağsaqqalları, şəhid ailəsi, Qarabağ veteranları, rayonun ziyalıları, həmçinin, gənc seçicilər iştirak ediblər.





Görüşü YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov açaraq seçklərlə bağlı Yeni Azərbaycan Partiyasının platforması barədə və YAP-ın deputatlığa namizədi Aqiyə Naxçıvanlının həyat və fəaliyyəti haqqında geniş məlumat verilib. Həmçinin, bundan əvvəlki deputatlığı dövründə gördüyü işlərdən danışıb.

Namizədin vəkili Emin Əzimli çıxışında Aqiyə Naxçıvanlının oğuzlular üçün xüsusi təqdimata ehtiyacı olmadığını bildirdi. Onun necə mətin, iradəli bir insan olmasından, Oğuz təhsilinə qayğısından söz açdı. Bütün oğuzluları Aqiyə xanımı dəstəkləməyə çağırdı.

Oğuz rayon Ağsaqqallar şurasının rəhbəri Cuma Cumayev Aqiyə xanımın ziyalı ailəsində doğulduğunu, hələ gənc ikən necə çalışqan, əzmkar biri olduğunu qeyd etdi.

Rayon ağsaqqalı Mirsahib Rəhimov Aqiyə xanımın mənsub olduğu ailə haqqında geniş danışdı. Qeyd etdi ki, rayonda ilk dəfə əməkdar müəllim adına atası Həbib Naxçıvanski layiq görülüb. Mirsahib müəllim məktəb direktoru vəzifəsində çalışarkən Həbib müəllimin ona göstərdiyi köməkliyi də kövrələrək qeyd etməyi özünə borc bildi.

*Ardı Səh. 10*

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

Əvvəli Səh. 9

Çıxışçılardan əməkdar jurnalist, tarix elmləri doktoru, professor Qafar Cəbiyev də hər zaman Oğuzda böyüyə, kiçiyə hörmət qoyulduğunu, dövlətə-dövlətçiliyə sadiqlik gördüyünü söylədi. Arzu etdi ki, Aqiyə xanım kimi deputatlar çox olsun. O, oğuzluların seçimdə yanılmayacaqlarına, Aqiyə Naxçıvanlının təkrar deputat olacağına ümid etdiyini söylədi.

Görüşdə çıxış edən seçicilərdən Əbülfət Əsgərov, Təranə Zəkəriyyəyeva və başqaları Azərbaycanda seçkilərin həmişə demokratik keçirildiyini, bu seçkinin də bir nümunə olacağına əmin olduqlarını və Oğuzda doğulub, boya başa çatan Aqiyə xanımın oğuzluların həm fəxri, həm də qürur mənbəyi olduğunu bildirdilər.

Oğuz rayon Cümə məscidinin baş axundu Şövkət Cəlilov çıxışında Aqiyə xanımı tanıdığı dövrdən bu yana milli-mənəvi dəyərlərə yüksək önəm verdiyini söylədi. Onun müsəlman aləminin müqəddəs Ramazan və Qurban bayramlarında xeyriyyəçi kimi seçicilərinin yanında olduğundan danışdı. Çıxışını - “Peyğəmbərimiz buyurub ki, qiyamət günündə alimin qanı şəhidin qanından üstün olacaq” fikirləri ilə bitirdi.

Görüşdə çıxış edən Xocalı məktəbinin direktoru Aydın Əliyev xocalıların çətin zamanlarında Aqiyə xanımın onlara dəstək olduğunu və hər il respublikamızda keçirilən Xocalı ildönümü münasibəti ilə onların görüşlərinə gəldiyini, daim qayğı göstərdiyini tədbir iştirakçılarının nəzərinə çatdıraraq - “ Biz Aqiyə xanıma səs verə bilməsək də, onu tək Oğuzun yox bizim də deputatımız bilirik” -deyə vurğuladı.

Görüşdə çıxış edən deputatlığa namizəd Aqiyə Naxçıvanlı Oğuzda doğulub, boya-başa çatması ilə qürür duyduğunu, bu gün oğuzlularla bir yerdə olmasından məmnunluğunu ifadə etdi. Seçicilər qarşısında hesabat xarakterli çıxış edən Aqiyə Naxçıvanlı parlamentdə 9 illik fəaliyyəti müddətində qanunvericilik və seçicilərini təmsilçiliyi ilə bağlı gördüyü işlərdən danışdı. O, vurğuladı ki, doğulduğu bu torpaq onun üçün çox əziz, əhalisi doğmadır. Hər bir sakinin uğuru onun uğuru, problemi onun problemidir. Bu illər ərzində istər gənclərə, istərsə də yaşlı nəslə diqqət və qayğısını əsirgəməmək, onların istənilən problemlərinin həllinə biganə qalmamaq və səlahiyyəti çərçivəsində həllinə nail olmaq onun fəaliyyətinin əsas prinsipidir. Aqiyə xanım növbəti beş ildə də Oğuz-Qəbələ seçicilərinin inamını qazanacağı təqdirdə parlamentdə Vətənini, millətini, seçicilərini layiqincə təmsil edəcəyini vurğuladı.

Aqiyə xanım bildirdi ki, səs verərkən, çalışın o səs ölkəmizin, partiyamızın, Oğuzumuzun gələcəyi naminə olsun!





## QUBA

Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatında 52 saylı Quba Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Aysel Şeydayeva və 53 saylı Quba-Qusar seçki dairəsi üzrə YAP tərəfindən Habil Bayramlının ilk partiya təşkilat sədrləri ilə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Yusif Abidov Azərbaycanın dinamik inkişafından, həyata keçirilən sosial layihələrin uğurlu nəticələrindən, vətəndaşların dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmalarından və digər məsələlərdən bəhs edərək, seçiciləri fevralın 9-da keçiriləcək parlament seçkilərində aktiv iştirak etməyə və YAP-ın namizədlərinə səs verməyə çağırıb. Rayon təşkilat sədri çıxışında onu da qeyd edib ki, Ümümmilli Lider Heydər Əliyevin qurucusu olduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçmiş YAP bütün seçkilərdə qələbə qazanıb ki, bu vətəndaşların YAP-a olan böyük inam və etimadının bariz nümunəsidir. Ölkə vətəndaşları Prezident İlham Əliyevin ölkəmizə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirirlər.

Görüşdə deputatlığa namizədliyi irəli sürülmüş Aysel Şeydayeva və Habil Bayramlı çıxış edərək, partiya tərəfindən onlara göstərilən bu yüksək etimada görə, minnətdarlıqlarını bildiriblər. Qeyd ediblər ki, 9 fevral parlament seçkilərində qələbə qazansalar, onlara göstərilən etimadı, öz bilik və bacarıqlarını sərf edərək yüksək şəkildə doğruldacaqlar. Görüşdə çıxış edən ilk partiya təşkilat sədrləri Bəxtiyar Məstanov, Güloğlan Zalov, Mirkazım Cəfərov partiyanın namizədlərinə uğurlar arzulayıblar.

## QUSAR

Fevralın 9-da ölkəmizdə keçiriləcək parlament seçkilərində 51 saylı Qusar seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Azər Badamovun təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşləri rayonun Gedəzeyxur, Bədişqala, Gündüzqala kənd və Qusar şəhər seçiciləri ilə keçirilib. Görüşləri YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, ölkəmizdə, eləcə də rayonda aparılan abadlıq-quruculuq işləri haqqında danışıb.

D.İbramxəlilov bütün bunların Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsi olduğunu qeyd edərək qusarlıların həmişə dövlətə və dövlətçiliyə sadiqlik nümayiş etdirdiklərini görüş iştirakçılarının diqqətinə çatdırıb. O, seçiciləri 9 fevral seçkilərində partiyanın namizədi Azər Badamova səs verməyə çağırıb.





Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, millət vəkili olduğu dövrdə gördüyü işlərə nəzər salıb. Seçiciləri səsvermə günü düzgün seçim edərək, layiqli namizədə səs verməyə çağırıb.

Görüşlərdə çıxış edən seçicilərdən Finyaz Kərimov, Asəf Əmirbəyov, Vüqar Balaşov, Məzahir Səlimov, Şixməhəmməd Zahirov, Abusərdar İskəndərov, Məryəm Kərəmova, Fərhad Pirmətov və Gülüş Hacıyeva seçkilərdə deputatlığa namizəd Azər Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

**Nəzakət ƏLƏDDİNQIZI**
**RƏFİQƏ HÜSEYNOVA**

## DSX: Dənizdə köməksiz vəziyyətdə qalan balıqçılar xilas edilib



Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsi Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsini uğurla davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, fevralın 3-də saat 12:15 radələrində Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsində olan “Tufan” tipli sərhəd gözətçi gəmisi Kürdili adasının cənubunda Lənkəran rayonu Nərimanabad qəsəbəsindən 8,1 mil məsafədə iki nəfər heyət üzvünün “Kömək edin!” işarəsini nümayiş etdirən hərəkətsiz balıqçı qayığı müşahidə edib. Sərhəd gözətçi gəmisinin fırtınalı hava şəraitində keçirdiyi xilasetmə tədbirləri nəticəsində texniki nasazlıq səbəbindən dənizdə qalmış “BA-5142” bort nömrəli “Yamaha-40” mühərrikli balıqçı qayığı yedəyə alınıb. Qayığın heyəti saat 15:10 radələrində xilas edilərək Nərimanabad qəsəbəsi istiqamətində sahilə çıxarılıb. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən xilas edilmiş şəxslərin Lənkəran rayonunun Nərimanabad qəsəbə sakinləri 1977-ci il təvəllüdlü Süleymanov Sədrəddin Yediyar oğlu və 1987-ci il təvəllüdlü Əsgərov Nail Namiq oğlu olmaları müəyyən edilib.

## “Mərmərə Qrupu” parlament seçkiləri ilə bağlı fəaliyyət proqramını açıqlayıb

***Türkiyənin “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfi fevralın 9-da Azərbaycanda Milli Məclisə keçiriləcək seçkilərdə müşahidəçi qismində həyata keçirəcəyi fəaliyyət proqramını təqdim edib. AZƏRTAC xəbər verir ki, “Mərmərə Qrupu” bununla bağlı açıqlama yayıb.***

Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverin imzası ilə yayılan açıqlamada bildirilir ki, qrupun üzvlərindən ibarət nümayəndə heyəti səsvermə prosesini izləyəcək, müşahidələr əsasında seçkilərin nəticələrinə dair rəyini açıqlayacaq. “Mərmərə Qrupu”nun nümayəndə heyəti fevralın 10-da Bakıda seçkilərin nəticələrinə dair mətbuat konfransı keçirəcək.



## YAP İsmayıllı rayon təşkilatında parlament seçkiləri ilə bağlı görüş keçirilib



***Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatında fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən müşahidəçi təyin edilmiş şəxslərlə və ərazi ilk partiya təşkilatı sədrləri ilə görüş keçirilib.***

Görüşü giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova Milli Məclisə keçiriləcək seçkilərə partiyanın hazırlığı ilə bağlı ətraflı məlumat verib. YAP tərəfindən irəli sürülən namizəd və təbliğat-təşviqat kampaniyası çərçivəsində keçirilən görüşləri müşahidəçilərin diqqətinə çatdırıb. S.Əhmədova müşahidəçilərin hüquq və vəzifələri barədə bəhs edib. Bildirib ki, müşahidəçilər seçici siyahıları ilə tanış olmaq, seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək, səsvermə günü istədiyi vaxt seçki məntəqəsinə daxil olaraq, prosesi izləmək, seçicilərin sayını, səs verilmiş və etibarsız hesab edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək, müşahidələrinin nəticələrinin seçki komissiyasının protokolunda qeyd edilməsini tələb etmək və s. hüquqlara malikdir. S.Əhmədova müşahidəçilərə bildirib ki, seçki prosesi olduqca əhəmiyyətli bir hadisədir: "Bu baxımdan, onlar ayıq-sayıq olmalı, qanunun və seçicilərin hüquqlarının təminatına çalışmalıdırlar. Nizam-intizamlı olmalı, öz hüquq və vəzifələrindən irəli gələn məsələlərin həllində səmərəli və keyfiyyətlə müşahidə aparmalıdırlar". Rayon təşkilatının sədri azad, şəffaf seçki mühitinin, eləcə də seçicilərin daha rahat və sərbəst səsverməsi, müşahidəçilərin müşahidə aparması üçün lazımı bütün tədbirlərin görüldüyünü bildirib. Onların beynəlxalq müşahidəçilərlə eyni hüquqlara malik olduqlarını nəzərə çatdırıb. Görüşdə həmçinin, birgə maraq doğuran suallar ətrafında fikir mübadiləsi aparılıb. Sonda müşahidəçilərə vəsiqələri təqdim edilib.

***ZÜMRÜD BAYRAMOVA***

## YAP Nəsimi rayon təşkilatında müşahidəçi və məşvərətçilərlə görüş keçirilib





***Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının qərargahında 9 fevral 2020-ci il tarixində keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə seçkilərlə əlaqədar səsvermə günü məntəqələrdə müşahidə aparacaq müşahidəçilər və məşvərətçilər eləcə də rayon təşkilatının ərazi ilk partiya təşkilatlarının sədrləri ilə görüş keçirilib.***

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı 9 fevral parlament seçkilərinə hazırlıqla bağlı rayon təşkilatı tərəfindən görülən işlər haqqında məlumat verib.

YAP Nəsimi rayon təşkilatının sədri M.İbrahimqızı seçki prosesini məntəqələr və dairələrdə izləmək üçün Yeni Azərbaycan Partiyası tərəfindən təyin edilmiş müşahidəçi və məşvərətçilərin vəzifələri və hüquqları haqqında ətraflı məlumat verib. Qeyd edib ki, seçkilərin şəffaf, aşkarlıq və demokratiya şəraitində keçirilməsi üçün müşahidəçilərin və məşvərətçilərin də üzərinə çox ciddi məsuliyyət düşür. Müşahidəçilərin və məşvərətçilərin Seçki Məcəlləsində təsbit olunmuş hüquq və vəzifələri, səlahiyyətləri olduğunu bildirən M.İbrahimqızı diqqətə çatdırıb ki, onların üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməli, obyektiv monitorinq aparmalıdırlar.

Görüş interaktiv müzakirələr şəklində davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

## *Çində təhsil alan azərbaycanlı:*
## universitetdən çıxmağa icazə verilmir!

***"Universitetdən kənara çıxmağa icazə yoxdur. Bu çəkilişləri edə bilmək üçün çətinliklə icazə almışam". Bunu Çində təhsil alan azərbaycanlı tələbə Əli Əlizadə SİA-ya açıqlamasında deyib. Ə.Əlizadə bildirib ki, universitetdə, ümumiyyətlə şəhərdə səhiyyə əməkdaşları əllərində sırf virusun simptomlarını ortaya çıxara bilən qızdırma ölçən cihazla mütəmadi olaraq yoxlamalar aparırlar: "Tələbələr həm universitetə daxil olarkən, həm də ali təhsil müəssisəsindən kənara çıxarkən ciddi yoxlanılırlar. Universitetdən kənara çıxan tələbələrə tez qayıtmaqları barədə tapşırıqlar verilir. Geri qayıdan tələbədə əgər hərarət normadan artıqdırsa, həmin tələbə birbaşa xəstəxanaya göndərilir".***







Ə.Əlizadə qeyd edib ki, yaşadığı və təhsil aldığı Anhui əyalətinin Hefei şəhəri virusun ortaya çıxdığı və daha geniş yayıldığı Uhan şəhərinə 300 kilometr məsafədə yerləşir: "Hefei şəhərində vəziyyət hələ ki, normaldır. Hazırda Çində virusa yoluxanların sayı 20 min 502 nəfər, virusdan ölənlərin sayı 426 nəfər, bu epidemiyadan sağalanların sayı isə 660 nəfərdir. Bu rəqəm Çin hökumətinin rəsmi yaydığı statistikadır. Uhanda karantin vəziyyəti davam etməkdədir. Uhan şəhərində təxmini 6 və ya 7 azərbaycanlı tələbə olub, lakin qardaş Türkiyə onları oradan evakuasiya edib. Hazırda onlar Türkiyədə karantin vəziyyətindədirlər".

Sonda isə Ə.Əlizadə vurğulayıb ki, Azərbaycanın Çindəki səfirliyinin əməkdaşları bizimlə mütəmadi əlaqə saxlayır və halımızın, vəziyyətimizin necə olduğu ilə maraqlanırlar: "Yaşadığım şəhərdə supermarketlər fəaliyyət göstərir, lakin nisbətən kiçik mağazalar bağlanıb. Marketlərdə bəzi ərzaq çatışmazlığı da var. Bağlanan marketlərin nə vaxt açılacağı isə məlum deyil. Əksər universitetlər ikinci semestri ləğv edib. Bəzi universitetlər isə ikinci semestrin başlama tarixinin gecikəcəyini bildirib. Lakin dəqiq vaxt deyilmir. Bu bir və ya iki ay da ola bilər. Hazırda bütün tələbələr xəbər gözləyirlər".

***Aysel Məmmədova***

## YAP Qaradağ rayon təşkilatında seçkilərlə bağlı toplantı keçirilib



Dünən Yeni Azərbaycan Partiyasının Qaradağ rayon təşkilatında ilk partiya təşkilatlarının sədrləri və gənclərin iştirakı ilə toplantı keçirilib. Tədbirdə YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov çıxış edərək fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı görülən işlər barədə ətraflı məlumat verib. Bildirib ki, 11 saylı Qaradağ Seçki Dairəsi və 12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki



Dairəsi üzrə YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülən nümayəndələrlə seçicilərin görüşləri mütəmadi olaraq keçirilir. Artıq bütün qəsəbələrdə belə görüşlər təşkil edilib, partiyamızın seçki platformasını əks etdirən bülletenlər seçicilərə paylanılıb və bu proseslər indi də davam etməkdədir. Qərargahda könüllülərdən ibarət formalaşan qruplar tərəfindən seçicilərə seçkilər barədə məlumatlar verilir.

YAP-ın seçki platforması barədə məlumat verən təşkilatın sədri bildirib ki, vətəndaşların hüquq və azadlıqlarının qorunması partiyamızın həmişə prioritet vəzifələrindən olacaq, ölkəmizin iqtisadiyyatının hərtərəfli inkişafı üçün sahibkarlara dəstək siyasəti davam etdiriləcək, insanların sosial rifahının yaxşılaşdırılması siyasəti davam etdiriləcək, əmək haqqları, pensiyalar və müavinətlər müntəzəm olaraq artırılacaq, təhsilin səviyyəsinin artırılması üçün davamlı addımlar atılacaq: "Bütün bunlarla yanaşı ölkəmizin dinamik inkişafı naminə həyata keçirilən tədbirlər davam etdiriləcək və "Daha güclü Azərbaycan naminə" devizimizi konkret işimizlə təsdiqləyəcəyik".

Qeyd olundu ki, xalqımızın bütün istək və arzularını uğurlu fəaliyyəti ilə doğruldan partiyamız xalqa xidmət siyasəti ilə seçilir və seçicilər tərəfindən yekdilliklə dəstəklənir. Növbəti seçkilərdə də seçicilərin dəstəyini alacağımıza əminik. Çünki Azərbaycanın durmadan inkişafı partiyamızın ilk qurucusu, Sədri, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və bu siyasəti reallığa çevirən ölkə Prezidenti İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə vəhdət təşkil edir.

***R.KAMALQIZI***

## YAP Zərdab rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrləri ilə görüş keçirilib



YAP Zərdab rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrləri ilə görüş keçirilib. Görüşdə bir sıra məsələlər müzakirə olunub və fikir mübadiləsi aparılıb. Görüşdə çıxış edən YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova Yeni Azərbaycan Partiyasının təkcə ölkənin deyil, regionun aparıcı siyasi təşkilatı olduğunu bildirib. P.Mahmudova ölkədə keçirilən bütün seçki proseslərində YAP-ın qələbəsini onun yenilikçi və monolit partiya olması ilə əlaqələndirib. O,



ərazi ilk partiya təşkilatlarında maarifləndirici təbliğat tədbirlərinin gücləndirilməsini toplantı iştirakçılarının diqqətinə çatdırıb.

P.Mahmudova çıxışında 9 fevral parlament seçkilərinə hazırlıq məsələlərinə xüsusi diqqət ayırıb. Onun sözlərinə görə, rayon təşkilatı partiya rəhbərliyinin tapşırıq və tövsiyələrinə uyğun olaraq, artıq seçkilərə hazırlıq işlərini tamamlanmaq üzrədir. Bildirib ki, seçkilərə hazırlıqla əlaqədar YAP Zərdab rayon təşkilatının 15 nəfərdən ibarət qərargahı yaradılıb.

P.Mahmudova çıxışında günümüzün mühüm sosial ünsiyyət vasitələrindən biri olan sosial şəbəkələrin gündəlik və ictimai həyatımızdakı rolundan danışıb. Vurğulayıb ki, partiya üzvləri sosial şəbəkələrdə daim fəal olmalı, dövlət başçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilən mühüm iqtisadi, siyasi və sosial islahatlar barədə maarifləndirici məlumatlar paylaşmalıdırlar. Həmçinin, dövlətimiz və ölkə rəhbərliyi haqqında əsassız informasiyalar yayan, ictimaiyyəti çaşdırmağa cəhd edən, xaricdən maliyyələşən bir qrup qaragüruhçular, vicdanını, şərəf və ləyaqətini itirmiş insanlar ifşa edilməli, bugünkü inkişafımızdan, uğur və nailiyyətlərimizdən, insanların rifahının yaxşılaşmasına istiqamətlənmiş proqram və layihələrin uğurlu nəticələrindən söhbət açmalıdırlar.

***ZÜMRÜD BAYRAMOVA***

## YAP Laçın rayon təşkilatında seminar-müşavirə keçirilib



Dünən YAP Laçın rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib. Tədbirdə çıxış edən YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov ölkəmizdə 9 fevralda keçiriləcək parlamet seçkilərindən danışaraq, bu siyasi kampaniyaya ciddi şəkildə hazırlaşdıqlarını diqqətə çatdırıb. O, qeyd edib ki,



seçkilərə hazırlıqla əlaqədar YAP İcra Katibliyi tərəfindən müəyyən tövsiyə və tapşırıqlar verilib. Partiyanın Laçın rayon təşkilatı da bu tövsiyə və tapşırıqlara, qəbul olunmuş müvafiq qərarlara uyğun addımlar atır.

Rayon təşkilatının sədri, həmçinin bildirib ki, seçkilər yaxınlaşdıqca müstəqil Azərbaycanın inkişafını istəməyən qüvvələr dövlətimizə qarşı qarayaxma kampaniyası apararaq ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışırlar. Onlar xaricdəki anti-Azərbaycan mərkəzlərin sifarişlərini yerinə yetirərək, alətə çevrilirlər. İ.İlyasov bildirib ki, Azərbaycan cəmiyyəti yetkin, intellektual cəmiyyətdir və bu kimi dairələr cəmiyyətimizdə dəstək qazana bilməyəcəklər. Xalqımız həmin dairələrin əməllərini qətiyyətlə pisləyir.

Seminar-müşavirədə həmçinin, bir sıra məsələlər müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

***R.HÜSEYNOVA***

## "Nar" ictimai fəallığı ilə seçilmiş gəncləri təbrik etdi

***Hər zaman gənclərə dəstək olan, onların peşəkar karyera qurmalarına, maariflənməsinə və asudə vaxtının səmərəli keçirilməsinə çalışan "Nar", 2 fevral - Gənclər Günü münasibətilə istedadlı və yaradıcı gənclərə öz dəstəyini göstərib. Belə ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş mükafatlandırma mərasimində mobil operator uğurlu fəaliyyəti ilə seçilmiş tələbə gənclər təşkilatlarını təbrik edib.***




Gənclər Gününə həsr olunmuş tədbirdə 2019-cu ildə müxtəlif sahələrdə nailiyyətlər qazanmış, respublikamızı xarici ölkələrdə yüksək səviyyədə təmsil etmiş gənclər, eləcə də ictimai fəallığı ilə seçilmiş gənclər təşkilatları mükafatlandırılıb. Məqsəd yüksək nailiyyət əldə etmiş gənclərin əməyini qiymətləndirmək, istedadlı gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmaq və onların peşəkarlıq səviyyəsinin artırılması üçün əlavə stimul verməkdir.

Qeyd edək ki, "Nar" korporativ sosial məsuliyyət strategiyası çərçivəsində gənclərin cəmiyyət üçün əhəmiyyətini anlayaraq, onların maariflənməsi, dünyagörüşü və analitik düşüncə bacarığını inkişaf etdirən layihələrə dəstək verib. "Nar"ın KSM layihələri haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

# Qadınlar və KİV

***Vətəndaşlıq, rifah qurumları və gender-bərabərliyi norma və dəyərləri arasındakı əlaqələrə miqrant qadın perspektivindən yanaşanda maraqlı suallar meydana çıxır. Onlara görə çoxluq və azlığın mədəniyyətlərində gender konfliktlərinə diqqət yetirsək, gender məsələlərinə həssas yanaşsaq, qurumların özlərinin tədqiqata ehtiyacı olduğunu görmək olar.***

Gender bərabərliyi və mədəni müxtəliflik arasındakı konfliktə həssas yanaşma ilə aparılan araşdırmaya həqiqətən ehtiyac var. Əsas arqumentlər ondan ibarətdir ki, siyasi sistem üçün mövcud olan demokratik çətinlik, etnik azlıqdakı qadınlara bərabər vətəndaşlıq hüquqları verə bilmə bacarığıdır, onların hüquqlarını tanıma və gündəlik həyatlarında və siyasətdə onlara təsir edə bilmə qabiliyyətidir. Digər gender-siyasi öhdəlik ondan ibarət olmalıdır ki, etnik azlıq qadınları emansipasiya yollarını özləri axtarmalı və elə inkişaf strategiyaları tapmalıdırlar ki, onların köməyi ilə milli çoxluq normaları, etnik azlıqların ailə normaları və gender bərabərliyi arasındakı çətinlikləri dəf edə bilsinlər. Feminist tədqiqatına görə dominant gender bərabərliyi diskursu da daxil olmaqla, rəsmi gender bərabərliyi diskursları və siyasətini təhlil etməyə ehtiyac duyulur. Sözsüz din, mədəniyyət və ailə formalarının müxtəlifliyini nəzərə alaraq, feminist srategiyanı inkişaf etdirmək lazımdır. Bu zaman patriarxal təzyiq və miqrant qadınlara qarşı olan qeyri-bərabər davranışı da unutmamaq vacib şərtlərdəndir.

Hazırda Azərbaycanda 3500-dən çox müstəqil hüquqi və fiziki şəxslər, ictimai qurumlar, siyasi partiyalar tərəfindən təsis edilən KİV dövlət qeydiyyatından keçmişdir. Onlara əsasən, qəzet və jurnallar, 44 elektron KİV, 30-dan çox informasiya agentliyi, 7 ümumrespublika, 14 regional televiziya kanalı, 12 kabel televiziyası və 11 radiostansiya aiddir. Həmin dövrdə qadınların KİV-də təmsil olunmasında ciddi problemlər vardır. Bu problemlər yanlız sovet dövrünün KİV ilə əlaqədar deyildir. Bunların bir çox sosiomədəni səbəbləri də vardır. Həmçinin jurnalistika sahəsində çalışan bu kiçik saylı qadın jurnalistlərin çoxu insan hüquqları, siyasi məsələlər barədə deyil, adətən mədəniyyət, ailə-məişət, sosial durum və başqa müvafiq mövzular barədə məqalələr yazırlar. Azərbaycan mediasında qadın jurnalistlərin belə zəif təmsil olunmasının və fərqli fəaliyyətinin səbəblərini aşağıdakı şəkildə səciyyələndirmək olar: - onlar cəmiyyətdə adlarının qalmaqallı məlumatlarda çəkilməsindən çəkinirlər; - onlar mübahisəli məlumatların yayılması ilə əlaqədar məhkəmələrə düşməkdən çəkinirlər; - onlar əxlaqsızlıqda ittiham olunmaqdan, böhtandan və hədələrdən çəkinirlər; - onlar barədə (xüsusilə, efir jurnalistləri) cəmiyyətdə formalaşan stereotiplər, onların ailə həyatı qurmasına maneçilik törədir; - kişi jurnalistlərdən fərqli olaraq qadın jurnalistlərə çox vaxt ikili münasibət ortaya qoyulur. Bütün bu və ya digər səbəblər qadınların həvəsdən düşməsinə, jurnalistikadan getməsinə və ailə hayatı barədə düşünməsinə gətirib çıxarır. Çünki onun bu fəaliyyəti nə ailədə, nə də cəmiyyətdə dəstək görmür. Azərbaycan Respublikasının Qadın Problemləri Üzrə Milli Fəaliyyət Planı Haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Qadınlar və KİV" qərarına əsasən aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur:

1. Qadınların KİV-nin fəaliyyətində daha fəal iştirakı üçün şəraitin yaradılması və idarəetmə səviyyəsində təmsil olunmalarının təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi;

2. BMT, ATƏT, Avropa Şurası və digər təşkilatlar tərəfindən keçirilən beynəlxalq və regional tədbirlərdə qadınların iştirakına köməklik göstərilməsi;

3. Qadınlara qarşı zorakılıq və qəddarlıq təbliğ etmək, habelə pornoqrafik yazıları, əsərləri və təsvirləri çap etmək, bu xarakterdə olan sair predmetləri hazırlamaq-yaymaq, reklam etmək, onlarla alver etməyə görə məsuliyyət haqqında qanunvericiliyin icra vəziyyətinin araşdırılması və nəticəsindən asılı olaraq müvafiq tədbirlərin görülməsi;

4. Geniş ünsiyyət prosesində qadınların rolunu artırmaq məqsədi ilə, qeyri-dövlət, o cümlədən, qadın təşkilatları, eləcə də, kütləvi informasiya vasitələri ilə bağlı təşkilatlar üçün informasiya şəbəkələrinin yaradılması və proqramlarının hazırlanması;

5. Qadınların cəmiyyətdə rolunun artırılması ilə bağlı məlumatların kütləvi informasiya vasitələri ilə yayılması;

6. Qadınlarla aparılan işləri geniş təbliğ etmək məqsədi ilə radio və televiziyada efir vaxtının ayrılması;

7. Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Konvensiyası və Pekin Fəaliyyət Platforması və onlarla bağlı digər sənədlər haqqında məlumatların xüsusi proqramlar vasitəsi ilə geniş təbəqələrə çatdırılması.

1995-ci il Pekində keçirilən IV Dünya Qadın Konfransında media və qadın məsələsində hökumətlərin, milli və beynəlxalq media sistemlərinin, onlardakı reklam şirkətlərinin vəzifələri müəyyənləşmişdir: "Qadın və qızların layiqli şəkildə təmsil olunması, onların fərqli rollarının təmsili üçün aparılan araşdırmalara yardım etmək, maarifləndirmək, təhsil və nəqliyyat məsələlərini təmin etmək, dəyişikliklər və həyata keçirilən layihələrlə əlaqədar məlumat vermək üçün media və reklam agentlikləri müəyyən proqramlar reallaşdırmağa təşviq etmək, mediada qadının layiqli və çoxtərəfli şəkildə təqdimatına təşviq etmək üçün media şirkətləri sahibləri və idarəçiləri daxil olmaqla media işçilərinə gender sahəsində təhsil verilməsinə şərait yaratmaq, medianın qadını alçaltmaqdan və cinsi istismardan uzaqlaşması, bunun yerinə qadınları yaradıcı, mütərəqqi, yararlı, önəmli insanlar kimi təqdim etməyə təşviq etmək, mediada pornoqrafiya, qadın və uşağa qarşı zorakılığa qarşı hüquqi tənzimləmənin həyata keçirilməsi zəruridir". Digər tərəfdən informasiya məkanı artıq internet KİV ilə bütün sərhədləri aşmışdır. Azərbaycanda əhalinin əksəriyyəti internet və peyk televiziyasından istifadə edirlər. Bu baxımdan gender sosiallaşmasında yerli KİV ilə yanaşı, fərqli gender baxışlarını əks etdirən xarici KİV də öz rolunu oynayır. Bu baxımdan dövlət KİV-də öz milli maraqlarını və təhlükəsizliyini təmin edən milli informasiya məkanı yaratmaqda çətinlik çəkir. Bu sahədə qloballaşmaya xidmət edən internet KİV aparıcı rol oynayır. Azərbaycanda KİV üzərində senzura götürüldükdən sonra bazar iqtisadiyyatının tələbləri ilə yeni müsbət və mənfi tendensiyalar meydana çıxdı. Yəni son dövrdə televiziya verilişlərində ortaya çıxan qadın və kişilərin görkəmi, davranışlarında ənənələrə zidd olan məqamlar çoxdur. Lakin bütün ənənələrin inkar olunması və eyni zamanda yeniliyin nə olduğunu bilməmək nəticəsində KİV-in öz tərbiyəvi funksiyası tamamilə itirmişdir. Bu baxımdan yeni gender sosiallaşması ilə bağlı KİV rolu ancaq mənfi istiqamətdə inkişaf edir. KİV-də qadınlarla və genderlə bağlı informasiyaların araşdırılması göstərir ki, bu sahədə jurnalist mütəxəssislərin sayı yox dərəcəsindədir. Bunun üçün, güclü təbliğat vasitəsi olan KİV-də, reklamların təşkilində gender mütəxəssislərinin fəaliyyətinə böyük ehtiyac vardır. Son dövrlərdə əksər qəzet və jurnallarda, Azərbaycanın əksər televiziya-radio kanallarında qadınlarla bağlı bir çox reklamlar, məqalələr və verilişlər meydana çıxmışdır. KİV-də, reklamlarda qadın şəxsiyyəti alçaldılaraq seksual obyekt və ya bir əşya kimi təqdim olunur. Yaxud qadınlar yanlız mətbəxdə, gözəllik verilişlərində, ev işlərində, uşaq tərbiyəsi məsələlərində, ailə verilişlərində ortaya çıxır. Son dövrdə qadınların arıqlaması və kosmetik cərrahiyyəsi ilə bağlı verilişlərdə qadın sanki özünün həyati məqsədinin kişilərin xoşuna gəlməkdən ibarət olduğunu sübut etməyə çalışır və bunun üçün bütün həyatını, qabiliyyətini qurban verməyə hazır olduğunu bildirir. Onlar sovet dönəmində sosializm quruculuğu yolunda dərindənqabıqdan çıxan zəhmətkeş qadın obrazının əksi olan meşşan təbiətli qadın obrazını yaradır. Yaxud müğənni qadınların ümumiyyətlə qadın barədə yaratdığı təsəvvürlər onları alçaltmaqdan, ləyaqətlərini tapdalamaqdan başqa heç bir şeyə xidmət etmir. Qadının bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq intim bir obyekt kimi hərraca çıxarılması, onların şəxsiyyətini və insani qabiliyyətlərini kölgədə qoyur. Bu məlumatlar qadınların ictimai gender bərabərsizliyi problemini həll etmir. Əksinə, onlar qadınların kişilərin xoşuna gəlmək yolunda yarışa dəvət edir. Təbii ki, bunların arxasında kommersiya məqsədləri dayanır. Lakin bu məqsədlər qadını azad bir şəxsiyyət kimi deyil, kişilərin zövqünə xidmət edən bir əşya və ya vasitə kimi dəyərləndirir. Televiziya kanallarında qadın məsələsi və genderlə bağlı bir çox silsilə verilişlər hazırlanır. Bu kütləvi verilişlərin aparıcıları və iştirakçıları arasında qurulan diskursiya cəmiyyətin gender sahəsində maarifləndirməsinə xidmət edir. Lakin əksər hallarda apacılar və iştirakçıların söhbətlərindən məlum olur ki, onlar problemin mahiyyətindən bixəbərdirlər. Adətən onlar gender problemləri ilə qadın problemlərini eyniləşdirirlər. Buna görə də yaranan diskusiyalar tamaşaçılar arasında çaşqınlığa və yanlış təsəvvürlərin formalaşmasına şərait yaradır. Bu səbəbdən televiziya jurnalistikası sahəsində gender mütəxəssislərinin yetişdirilməsi vacibdir. Qadınlar televiziyada, xüsusilə reklamlarda kütləni cəlb edən və ona təsir etmək gücünə malik olan kommersiya və ideoloji təbliğat obyekti kimi istifadə olunurlar. Qadınların reklamlarda yeri və rolu zamanla dəyişir. Son dövrlərdə qadınlar daha çox reklam məhsulu ilə aidiyyəti olmayan intim obyekt kimi təqdim olunurlar. Bu reklam olunan məhsullara şüuraltı marağın oyanmasına səbəb olur. Bu həm də şüurda qadının intim obyekt kimi səciyyələndirilməsinə şərait yaradır. D.İmançer və A.İmançer, reklamlarda təmsil olunan qadın obrazlarını araşdıraraq, onları dörd qrupa bölmüşlər:

1. Gözəl, cəlbedici gənc qadın - intim cəlbediciliyi, sərbəstliyi, zövqlü geyimi ilə həm reklam tamaşaçılarını, həm də kişilərin diqqətini özünə çəkən patriarxal yönümlü reklam obyekti;

2. Çalışan qadın - həm gənc, baxımlı, zövqlü, əylənməyi sevən, həm də kişilərlə bərabər karyera və status qayğısına qalan, yəni hər şeyi yerli-yerində çatdıran və uğur qazanan;

3. Evli və ana qadın - özünü ailəsinə həsr edən, yoldaşı və uşaqlarının rahatlığını düşünən baxımlı, mükəmməl olan, ev işlərini əri ilə bölüşdürən və ya məişət cihazları vasitəsilə ev işlərini həll edən;

4. Yaşlı qadın - xoş xasiyyətli, gülərüz, ağbirçək, hörmət edilən, ana, mehriban nənə D. Kelner bildirir ki, reklam və moda sənayesi istehlakla yanaşı əxlaq, siyasət, sosial davranış normaları yaradır və cəmiyyətə kişi-qadın tipləri təqdim edir. Buna görə də onlar cəmiyyətin sosial-iqtisadi və mədəni həyatının formalaşmasında və dəyişməsində aparıcı rola malikdirlər. KİV öz mənafeyi istiqamətində fəaliyyət göstərdikləri təqdirdə gender maarifçiliyi ilə əlaqədar proqramlar ortaya çıxmayacaqdır. KİV-də biznes, idarəetmə, siyasət sahəsində fəal və ləyaqətli qadınların təbliği zəif xarakter daşıyır. Halbuki, bu kimi qadınların geniş təbliği cəmiyyətdə gender sosiallaşmasına müsbət təsir göstərər. Yəni KİV-də qadın ənənəvi olaraq yalnız ana, gözəl qadın olmaqla yanaşı, həm də cəmiyyətin inkişafında mühüm rol oynayan fəal bir insan kimi təqdim olunmalıdır. Bu həm gender kimliyi yeni formalaşmaqda olan oğlan uşaqlarının qadınların şəxsiyyətinə münasibətdə pozitiv hisslərinin formalaşmasına, həm də gənc qızlarda özünəinam hisslərinin artmasına şərait yaradar. Qadınların kütləvi informasiya vasitələrində təbliğ olunmasına mühüm şərait yaratmaq lazımdır.

Qadınların kütləvi informasiya vasitələrində təbliğ edilməsi tədqiqatının keçirilməsi üçün dərsliyin tərtib edilməsi və bu dərslikdə qadınların fəaliyyətinin dəyərli şəkildə təbliğ edilməsi və qadının müsbət obrazının yaradılmasına yardım edən əsas prinsiplər özünə yer tapası önəmli uğurlar əldə oluna bilər. Ümumilikdə, bunlar cəmiyyətdə gender simmetriyasının əldə olunmasına şərait yaradar.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Bir bezin qıraqları...

## Yaxud AŞPA gəldi, “əzabkeş” radikallar daha da “məzlumlaşdı”

***Dağıdıcı müxalifət “liderləri”nin xaraktersizlikləri onların özlərini xarici təşkilatlar qarşısında “erməni xəstəliyi simptomu” kimi tanınan “əzabkeş” və “məzlum” kimi tanıtmaları bu dəfə də sübuta yetdi. Əslində, AŞPA-nın seçki missiyasının Bakıya səfəri zamanı müxalifət təmsilçiləri ilə görüş keçirmələrində təəccüblü heç nə yoxdur. Yəni xüsusilə, seçkiöncəsi belə görüşlərin keçirilməsi demokratik mühitin tərkib hissəsi kimi anlaşılmalıdır.***




Seçkiyə gedən müxalifətçilərlə yanaşı, seçkiyə getməyən müxalifətçilərin, yəni öz təbirlərincə “boykot taktikası” tətbiq edib, belə bir əhəmiyyətli prosesdə iştirak etməkdən boyun qaçıran, əslində isə zəifliklərini etiraf edən fərdlərin ətəklərini başlarına çəkərək, sözün əsl mənasında ağlaşma qurmaları həqiqətən də ictimai rəydə onlara qarşı istehza baxışlarını daha da gücləndirdi.

Xüsusilə də, AŞPA-nın “siyasi məhbus” oyunbazlığından oyunbaz və erməni xislətli dağıdıcı müxaliflər istifadə edərək, bu görüşdə, məhz dövlətçilik maraqlarına qarşı sifarişli siyasət həyata keçirən partiyalar və qurumların iştirak etməsi də təəccüblü deyildi. Belə ki, Müsavat partiyasının başqanı, namizədliyi qeydə alınsa da, hələ də narazılıq edən, öz partiyasının qurultayında saxtakarlıq yolları ilə başqanlıq kürsüsünü ələ keçirən Arif Hacılı, “boykotçuluq” və siyasi həyasızlıq nümunəsinin bariz təcəssümçüsü, AXCP sədri Əli Kərimli, həbsdən azadlığa çıxar-çıxmaz Qərbin anti-Azərbaycan dairələrinə minnətdarlıq edən və özünə “Haqq-Ədalət Partiyası” adlı təşkilat yaradan Əli İnsanov, “ReAl” partiyasının hərdəmxəyal sədri İlqar Məmmədov və əlbəttə ki, destruktiv düşərgənin “primadonnası”, minsifətli “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəyli! Məqsəd bəlli, ancaq nəticə də bəlli. Bir bezin qırağı olanların dərdi beynəlxalq təşkilatlarda Azərbaycan haqqında mənfi rəy yaratmaq, “seçkilər saxtakarlıqla keçirilir” deməklə hay-həşir salmaq.

### Əli Əhmədov: “Əli İnsanov Azərbaycanın bugünkü reallıqlarını çox yaramaz formada təhrif edir”

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov seçkilər ərəfəsi Azərbaycan iqtidarı əleyhinə əsassız bəyanatlar səsləndirən Əli İnsanovun erməni lobbisinin dəstəyinə arxalanmaq məqsədilə onların müdafiəçisi kimi çıxış etməyə başladığını bildirib: “Əli İnsanov Azərbaycanın bugünkü reallıqlarını çox yaramaz formada təhrif edir. Guya Azərbaycanda insan hüquqları pozulur, əhali çətinliklər içərisində yaşayır. Əli İnsanov Bakının timsalında Azərbaycanda nə qədər möhtəşəm dəyişikliklərin baş verdiyinin şahidi ola-ola bütün bu gerçəkliklərə göz yumur. Bu isə onun məkrli niyyətindən xəbər verir... Müxalifət itirdiyi mövqelərini yanlış yolla bərpa etməyə çalışır. Bu da söyüş, təhqir, böhtan kampaniyasıdır. Bu isə istənilən halda başucalığı gətirmir. Eyni zamanda bu kampaniya onların tərəfdarlarının sayını da azaldır... Təhqir və böhtanla hakimiyyət uğrunda mübarizə aparmaq mümkün deyil. Əgər hakimiyyət uğrunda mübarizə aparırsansa, düzgün olmalı, insan hüquqlarına hörmətlə yanaşmalısan. Böhtanla imic formalaşdırmaq mümkün deyil”.

### AŞPA-nın dəlilsiz, sübutsuz “siyasi məhbus” oyunbazlığı

Dağıdıcı müxalifət seçkiərəfəsi AŞPA-nın məlum qərəzli “qətnaməsindən” istifadə edərək, Azərbaycan haqqında tənqidlər səsləndirir. Maraqlıdır, görəsən AŞPA-nın seçki missiyası seçkiləri “boykot” edən Ə.Kərimliyə, G.Hacıbəyliyə sual edibmi ki, onların və yandaşlarının bu addımları mövcud situasiyaya heç bir təsir göstərə bilməz? Yaxud anlada bilibmi ki, həmin “taktika” əslində onların zəifliklərinin, uğursuzluqlarının məntiqi sübutudur? İnanırıq ki, onlara belə bir sual verilməyib, əksinə, Azərbaycanın demokratik seçki mühitinə qarşı əsassız, məntiqsiz, sübutsuz, dəlilsiz “kompromatlar” toplanılıb ki, sonradan, yəni seçkidən sonra dərhal digər bir Avropa qurumu - ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu həmin “kompromatları” qərəzlə xalqın üzünə oxusun. Amma bütün bunlar əbəsdir. Çünki xalq kimin-kim olduğunu çoxdan bilir, bundan sonra da biləcək.

**Rəfiqə HÜSEYNOVA**



**Təhmasib Novruzov**

## Baykot olmuşların “baykot yürüşü”

***Papağımı qoyub qabağıma gecə-gündüz ha düşünürəm, ha daşınıram, bizim bəzi özünü müxalifət kimi qələmə verən siyasət dəllallarının nə strategiyasından, nə də taktikalarından baş aca bilmirəm ki, bilmirəm. Əslində olmayan bir şeydən baş açmaq heç mümkün də deyil, amma nə qədər olmasa, bunlar da özlərini siyasət meydanında hesab edirlər və əgər bu meydandasansa sənin, gözlərə kül üfürmək xatirinə də olsa bir strateji məqsədin, taktiki gedişlərin ortada olmalıdı axı!***

Dağıdıcı ünsürlər gecə-gündüz ötən çağırış Milli Məclisin legitim olmaması, seçkilərin saxtalaşdırılması(?) kimi sərsəm çağırışları ilə özlərini gündəmdə saxlayırdılar. Ölkə başçısı bu parlamentin buraxılması ilə bağlı Milli Məclisin qəbul etdiyi qərarı təsdiqləyib, növbədənkənar seçkilərin keçirilməsi haqqında Sərəncam imzalayan  kimi, müxalifət adlanan bu zadlar başladılar ki, iqtidar öz hakimiyyətinin ömrünü uzatmaq, nə bilim beynəlxalq aləmi aldatmaq üçün belə qərar verdi. Halbuki həm dünyada, həm də ölkədə “məmə deyəndən pəpə yeyənə” qədər hər kəsə gün kimi aydındır ki, bu addım ölkə başçısının başladığı inqilabi yenilənmə naminə islahatların bir tərkib hissəsidir və yenilənmə naminə yeni təfəkkürlü parlamentin formalaşması istəyi köklü yenilənmədən xəbər verən mühüm amildir. Amma bizim qocaman müxaliflər bunu da başladılar öz istəklərinə (daha doğrusu, fitva verənlərinin istəklərinə) uyğun yozmağa.  Sonra da oturub hardansa borca papaq tapıb qoydular qabaqlarına və düşünüb-daşınıb qərara gəldilər ki, seçkilərdə iştrak eləsələr məğlubiyyətləri qaçılmazdı. Odur ki, “baykot” etmək haqqında danışıb, bu ütüdən də birtəhər çıxmaları lazımdı. Xüsusilə, “cəMilli Şura” ilə onun özünəbənzər “əliCəbhəsi” partiyası başladılar “baykot”dan danışmağa. Özlərinə bir kərə olsun sual verməidlər ki, “baykot” etmək istəyən “siyasi qüvvə” cəmiyyətdə hansı siyasi çəkiyə malikdir və bu qərarın gerçəkləşməsi üçün onların elektoratı varmı? Bunda da işim yoxdu, ağaları deyib sürün dərəyə, bunlar da sürüblər. Ağızları nədi xarici ağalarının dediklərindən çıxalar? O zaman bazarları üzlərinə bağlanar. Seçkilər başladı mərhələlərlə həyata keçməyə. Baxıb gördülər ki, onların “baykot” çağırışına rəğmən, cəmiyyət bu seçkilərə heç zaman olmadığı qədər fəal qoşulub və beynəlxalq qurumlar da bunu görüb özlərini yetirirlər Azərbaycana ki, seçkiləri müşahidə etsinlər. Yəni bu seçkilərin də həm cəmiyyət, həm də beynəlxalq aləm tərəfindən legitimliyinə şübhə yeri qalmayacağı anladılar və bu dəfə “cəMilli Şura”  bir bəyanat guppuldatdı, arxasından da Əllilik Kərim çıxdı  xaricdən yayımlanan onlayn kanallara ki, biz bu seçkilərin nəticələrini tanımayacağıq. Bah, biməmişdik, beş-on nəfər tanımayacaq deyə bu boyda siyasi tədbiri dayandıracaqdıq ki, gərək onlar da razı  qalsın! Sosial şəbəkələri izləyən hər kəs üçün kifayətdir ki,seçkilərin nə dəqər yüksək fəallıqla, demokratik ənənələrə sadiqliklə, xalqın öz istəyini azad ifadə etməsinə yaradılan möhtəşəm şəraitlə müşahidə olunduğunu təsdiq etsin. Yaxşı, seçkilərin demokratik olmayacağını deyirdin, demokratiya ən yüksək səviyyədə təmin olunduğu göz qabağında. Seçki qanununun tələblərinin pozulacağından bağırırdın, beybəlnəlxalq müşahidəçilər bu günə kimi bir qanun pozuntusu belə qeydə almayıb. Bir sözlə, seçkilərin şəffaf və demokratik keçiriləcəyinə kimsə “mız” qoya bilmir. Amma bunlar yenə bağırmaqda davam edirlər ki, qoymayın, seçkilər saxtalaşdırılır. Bax ona görə yazımın əvvəlində qeyd elədim ki, bunların nə starategiyası var, nə də taktikası. Bunlar, sadəcə “baykot” deyə-deyə özləri özlərini baykot etmişlərdi. Baykot olmuşların “baykot” deyib bağırmasının isə özlərindən başqa kiməsə zərəri dəyməyəcəyi gün kimi aydındır. İndilik bu qədər, qalanı qalsın müxalif adlanan siyasət dəllallarının seçkisonrakı şivənlərinə...

# Natiq Cəfərli Cəmil Həsənlinin “siyahı” oyunbazlığını “ağ yuyub, qara sərdi”

## “REAL”çı funksioner “Milli Şura” sədrinin bu addımını zərərli hesab edir

***Parlament seçkiləri öncəsi radikal müxalifət daxilində qarşıdurmalar sürətlə davam edir. İstər seçkilərə qatılanlar, istərsə də qatılmayanlar arasında baş verən siyasi duellər, bir daha sübut edir ki, düşərgə, həqiqətən də, çıxılmaz durumdadır. Bu arada, “Milli Şura”nın sədri Cəmil Həsənlinin özündən növbəti siyasi hoqqabazlıq sərgiləyərək, guya ki, deputat seçiləcək şəxslərin “siyahısını” tərtib edib, ictimailəşdirməsi elə həmin düşərgənin digər qanadında təmsil olunan şəxslər tərəfindən də sərt şəkildə qınanılıb.***

### “Milli Şura” özü seçkilərdə iştirak etmir və yanlış olaraq, insanların seçkilərə marağının azalmasını, seçkiyə qatılmamalarını istəyir”

“REAL” partiyasından namizədliyini irəli sürmüş icra katibi Natiq Cəfərliyə görə, C.Həsənlinin iddiasına özünəməxsus cavab verib: “Məni şəxsən üzən məsələ ondan ibarətdir ki, indi bu siyahını yayan adam-”Milli Şura”nın sədri özü iki dəfə deputat olub. İndi onun siyahı yaymasından onun özünə sual ünvanlayıram ki, əgər indiyə qədər seçkilər sizin dediyiniz kimi keçirilibsə, etiraf etmisinizmi ki, siz də iki dəfə deputat mandatını saxta yolla almısınız?”



“REAL”çı funksioner nə C.Həsənlinin, nə də sədri olduğu qurumun seçkilərə qatılmadığı halda, belə bir oyunbazlıq sərgiləməsini yolverilməz adlandırıb və iddia edib ki, bu addım həm də insanların seçkiyə inamlarının azaldılması üçün atılan təxribat addımıdır: “Milli Şura” özü seçkilərdə iştirak etmir və yanlış olaraq, insanların seçkilərə marağının azalmasını, seçkiyə qatılmamalarını istəyir. Məlum siyahını da yaymaları insanlarda seçkiyə inamı azaltmaq və insanların seçkiyə getməsinin qarşısını almaqdır”.

### “Özünü müxalifət adlandıran marginallaşmış qrupun bu hərəkəti çox üzücü mənzərədir”

“Bu, çox yanlış və zərərli fəaliyyətdir” deyən “realçı”ya görə, belə çıxır ki, həmin təşkilat və onun sədri ölkədə demokratiya istəmir: “Çünki seçicilərin seçkidə aktivliyinin yüksək olmasının özü demokratiya nümunəsidir. Boykotçular insanları seçkidən soyutmağa çalışırlar. Məlum addımları ilə həm demokratiyaya zərbə vururlar, həm də seçicilərə hörmətsizlik edirlər. Sanki mesaj verirlər ki, Azərbaycanda vətəndaş, seçici yoxdur, seçicidən heç nə asılı deyil və sair. Özünü müxalifət adlandıran marginallaşmış qrupun bu hərəkəti çox üzücü mənzərədir. Həmin marginallaşmış qrup qarşısına məqsəd qoyub ki, seçkidə vətəndaş aktivliyi aşağı düşsün. Yumşaq desək, bu, ən azından, təəssüf doğurur”.

Nəticə isə budur - artıq düşərgədə doğru ilə yanlışlıqlar göz önündədir və hətta onun digər qanadını təmsil edənlər də, reallığı görür və dərk edirlər. Hər halda, seçkilər öncəsi bu prosesə pəl vurmağa çalışanlar layiqli cavablarını almaqdadırlar.

**Rövşən RƏSULOV**

# İNSAN HÜQÜQLARININ POZULMASI HALLARI: **TƏCAVÜZ**

***Təcavüz ən ağır beynəlxalq cinayət hesab olunur. Təcavüzün beynəlxalq cinayət statusu və beynəlxalq fərdi cinayət məsuliyyəti doğurması hər şeydən əvvəl beynəlxalq adət hüququndan irəli gəlir. Başlıca maddi- hüquqi əsas kimi Nürnberq Tribunalının Nizamnaməsi hökmünü və müəyyən mənada, habelə hüquqi xarakterə malik olmayan, lakin çox böyük əhəmiyyət daşıyan "Təcavüzün tərifi" haqqında BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli qətnaməsini göstərmək olar.***

Ümumi beynəlxalq hüquqa görə, dövlət tərəfindən törədilən təcavüzün planlaşdırılmasında, hazırlanmasında, başlanmasında və ya həyata keçirilməsində rəhbər və yaxud təşkilatçı kimi fəal iştirak edən və ya bu barədə əmr verən şəxs təcavüz cinayətinə görə məsuliyyət daşıyır. Təcavüz aktını yalnız müvafiq hakimiyyət səlahiyyətlərinə malik olan şəxslər törədə bilərlər. Başqa sözlə, bu halda söhbət "rəhbərlər"dən və ya "təşkilatçılar"dan getməlidir; bu terminlər nəinki hökumət üzvlərini, habelə hərbi iyerarxiyada, diplomatik korpusda, siyasi partiyalarda və ya işgüzar dairələrdə yüksək vəzifələr tutan şəxsləri də əhatə edir. Təcavüz aktının törədilməsində iştirak qəsdən olmalıdır və təcavüzkar plan və ya siyasət çərçivəsində bütün işin dərk edilməsilə həyata keçirilməlidir. Fiziki şəxsin təcavüz cinayətinə görə məsuliyyəti təcavüzün dövlət tərəfindən törədilməsilə sıx və üzvi surətdə bağlıdır.

BMT Nizamnaməsinin 39-cu maddəsinə görə təcavüz aktının müəyyən edilməsi BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir. Təcavüz cinayəti özündə bir neçə mərhələni ehtiva edir: 1) təcavüz aktının törədilməsi haqqında əmr verilməsi; 2) təcavüzkar müharibənin planlaşdırılması; 3) təcavüzkar müharibənin hazırlanması; 4) müharibənin başlanması; 5) müharibənin aparılması. Praktikada bu mərhələlər bir-birindən aydın fərqlənmir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, yalnız bir mərhələdə iştirak cinayət məsuliyyətinin yaranması üçün kifayətdir. Genosid. Beynəlxalq hüquqa görə genosid (yun. genos - qəbilə, tayfa və lat. caedo - öldürürəm) ən ağır beynəlxalq cinayət olmaqla təcavüz, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, beynəlxalq terrorizm kimi cinayətlərlə yanaşı sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir.

Beynəlxalq cinayət hüququnda genosid xüsusilə təhlükəli beynəlxalq cinayət kimi dəyərləndirilir. Genosid cinayətinin tərkibi bir sıra beynəlxalq-hüquqi aktlarda müəyyənləşdirilmişdir. Genosid cinayətinin əsas tərkib elementini zəruri niyyətin təşkil etməsi və onun dinc dövrdə törədilə bilməsi də bu əməli digər oxşar beynəlxalq cinayətlərdən, xüsusilə də insanlıq əleyhinə cinayətlər və müharibə cinayətlərindən fərqləndirir. Məhz buna görə də, genosid, Yuqoslaviya və Ruanda Tribunalları nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsinin Statusunda və bir sıra digər sənədlərdə ayrıca beynəlxalq cinayət kimi fərqləndirilmişdir. 225 Genosid cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyanın preambulasında qeyd olunduğu kimi, genosidin bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alınaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə genosid hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlərdir:

- bu cür qrup üzvlərinin öldürülməsi; - belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; - hər hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin

görülməsi; - uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi. Analoji müddəa Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının nizamnaməsində (4-cü maddə), Ruanda Beynəlxalq Cinayət Tribunalının nizamnaməsində (3-cü maddə), Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər Məcəlləsinin layihəsində (17-ci maddə), Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (6-cı maddə) və bəzi dövlətlərin cinayət qanunvericiliyində əks olunmuşdur. Belə bir müddəa Azərbaycanın daxili qanunvericiliyində də təsbit olunmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsinə əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa 226 qrupa keçirmə genosid sayılır. Konvensiyanın iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Konvensiyaya əsasən genosid, genosid törətmək məqsədilə sui-qəsd, genosidə birbaşa və açıq təhrikçilik, genosidə cəhd, genosiddə iştirak etmək əməlləri cəzalandırılır. Genosid cinayəti törətməkdə təqsirli bilinən şəxslərin ekstradisiyasına gəlincə isə, Konvensiyaya əsasən müqəssirlərin təhvil verilməsinə münasibətdə genosid siyasi cinayət sayılmır. Deməli, genosid cinayəti törətmiş şəxslərə sığınacaq hüququ şamil edilmir. Konvensiyanın 8-ci maddəsinə əsasən, Konvensiyanın hər bir iştirakçısı BMT-nin müvafiq orqanına BMT Nizamnaməsinin müddəalarına uyğun olaraq, onun fikrincə genosidin qarşısını almaq və ya kökünü kəsmək üçün lazım olan bütün tədbirlərin görülməsi tələbi ilə müraciət edə bilər. Konvensiyaya görə bu və ya digər dövlətin genosiddə məsuliyyəti barədə mübahisə, tərəflərdən birinin tələbi ilə Beynəlxalq Məhkəməyə verilir. Onu da qeyd etmək lazımdır ki, 26 noyabr 1968-ci il tarixli Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında Konvensiya imkan verir ki, törədilmə vaxtından asılı olmayaraq genosid cinayəti törətmiş məsul şəxslər istənilən vaxt cinayət məsuliyyətinə cəlb olunsunlar. Belə bir müddəa Azərbaycanın daxili qanunvericiliyində də nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müddətin keçməsi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə ilə bağlı 75-ci maddəsinin 5-ci bəndinə əsasən, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş sülh və bəşəriyyət əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərə bu maddənin müddəaları tətbiq olunmur. BMT Baş Məclisinin 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərdə, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərdə və bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin məhkəmə təqibinin və cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət vardır.

Ermənilər dəfələrlə Azərbaycana təcavüz ediblər, türklərə qarşı soyqırım aktları törədiblər. Bütün bunlar təsadüfi deyil və ermənilərin bu addımları planlı şəkildə həyata keçirilib. Bunun arxasında türk düşmənçiliyi ilə yanaşı, "Böyük Ermənistan" ideyası da dayanır. Bu gün bir erməni uşağının beyninə türklərə qarşı nifrət yeridilir, tarixi Azərbaycan torpaqları erməni torpağı kimi qələmə verilir. Bu uşaqlar böyüyüb siyasətçi, hərbçi, jurnalist, idmançı olur və hər yerdə bizə qarşı düşmən mövqedə dayanırlar. Əslində bu xəstə təfəkkür ilk növbədə onların özünə zərbə vurur. Bu gün təcrid olunmuş vəziyyətə düşən Ermənistan yenə də ənənəsinə sadiq qalaraq düşmən mövqedə dayanır, Azərbaycan torpaqlarına iddialarından geri çəkilmir, Dağlıq Qarabağla bağlı danışıqlarda qeyri-konstruktiv mövqe tutaraq status-kvonu uzatmağa çalışırlar. Ermənilərin bu xəstə təfəkkürü Azərbaycana, həmçinin türklərə qarşı olan bir sıra qlobal güclərin işinə də yarayır. Onlar dəfələrlə ermənilərdən bu məqsədlə alət kimi sitifadə ediblər və onlar yenə də istifadə obyekti olaraq qalırlar. Erməni təcavüzünün kökündə məhz bu amillər dayanır.

Təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırım və etnik təmizləmələrə məruz qalıblar.

Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqələrini viran qoyub, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşüb. Ermənilər 200 mindən artıq azərbaycanlını fərq qoymadan qətlə yetirməklə həmin ərazilərdə etnik təmizləmə aparıblar.

Erməni silahlı qüvvələri tərəfindən 1917-ci ilin əvvəllərindən 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197 kənd, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılıb, digər bölgələrdə 60 yaşayış məskəni məhv edilib, yandırılıb və viran qoyulub.

Bolşeviklərin, o cümlədən, Leninin himayəsi altında Şaumyan Bakı Komunnasının rəhbəri oldu. Onun başçılığı ilə 1918-ci ilin martında ermənilər tərəfindən dinc azərbaycanlılara qarşı əsl soyqırım törədildi. Martın 31-də və aprelin ilk günlərində qırğınlar kütləvi xarakter aldı. Həmin günlərdə erməni-bolşevik birləşmələri Bakıda 12-15 min dinc azərbaycanlını qətlə yetirdilər.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Ermənilərin basqını nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan xüsusi qəddarlıqla qətlə yetirilib, 162 kənd dağıdılıb ki, onlardan 35-i hazırda mövcud deyil.

Bundan əlavə, Azərbaycanın yüzlərlə yaşayış məntəqəsi, o cümlədən, Qarabağda 150-dən çox kənd dağıdılıb və yandırılıb, eləcə də Şuşada azərbaycanlılara qarşı amansız qırğınlar törədilib.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarına əsasən, 150 minə yaxın soydaşımız zorakılıqla deportasiya olunub.

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddiaları irəli sürdülər. Təcavüzkar Ermənistan Dağlıq Qarabağdan 50 min azərbaycanlını soyqırıma məruz qoyub, didərgin salıb, eləcə də Ermənistandan 250 min azərbaycanlını tarixən yaşadığı torpaqlardan zorakılıqla deportasiya edib.

1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfər azərbaycanlı həlak olub, 100 000 nəfərdən çoxu yaralanıb, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olub. 4853 nəfər itkin düşüb, onlardan 1357 nəfəri əsirlikdən azad edilib, 783 nəfəri isə hələ də Ermənistanda əsirlikdədir. Beynəlxalq Qızıl Xaç Komitəsinin məlumatına görə, 439 nəfər əsirlikdə ölüb. 1992-1994-cü illərdə daha da kəskinləşən təcavüz siyasəti Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi təcavüzü formasını alıb. Xocalı şəhərinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş işğalı xüsusi qəddarlıqla seçilən faciə kimi XX əsrin bəşəriyyətə qarşı cinayətlərinin qara siyahısına daxil olub ki, orada qoca, qadın və uşaq da daxil olmaqla 613 dinc sakin vəhşicəsinə qətlə yetirilib. Bunun ardınca 1992-93-cü illər ərzində Ermənistanın xaricdən dəstəklənən silahlı qüvvələri Azərbaycan ərazisinin beşdə birini işğal ediblər. Beləliklə, münaqişə nəticəsində təqribən bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib.

1994-cü il mayın 12-dən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tərəfləri arasında atəşkəs rejimi əldə olunub.

Bu problem Azərbaycan tərəfindən qəti şəkildə qaldırıldığı və bütün bölgənin təhlükəsizliyinə ciddi təhdidlər törətdiyi üçün beynəlxalq ictimaiyyətin diqqətindən də kənarda qalmayıb. BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Bu qətnamələrin hər biri Azərbaycana qarşı erməni təcavüzünün növbəti mərhələsindən sonra qəbul olunub.

Erməni təcavüzünün tərkib hissələrindən biri də köçürülmə siyasətidir. Tarixin müxtəlif mərhələlərində ermənilər Azərbaycan torpaqlarına köçürülərək, burada yerləşdiriblər ki, bu da yaxın və uzaq perspektiv üçün nəzərdə tutulan işğalçılıq siyasətinə hesablanıb. Burada böyük dəstəkçi rolunda isə çar Rusiyası çıxış edib.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

5 fevral



## Təyyarədə qorxu filmi həyəcanı yaşanıb



Budapeştdən Edinburqa uçan reysin sərnişinləri qorxu filmindəki rolları məcburən real həyatda oynamalı olublar. AZƏRTAC xəbər verir ki, təyyarə göyə qalxandan təqribən bir saat sonra sərnişinlər bir-birinin ardınca bayılmağa başlayıblar.

Ehtimala görə, buna təyyarənin içində oksigen çatışmazlığı səbəb olub. Heyət üzvləri sərnişinlərə kömək etmək üçün onlara oksigen maskaları paylayıblar. Təyyarədə panika başlayıb. Azı 8 adam huşunu itirib. Təyyarə yerə enəndən sonra sərnişinlər yaşadıqları bu dəhşəti "cəhənnəmdən qaçış" adlandırıblar. Sərnişinlərin bir hissəsi "Ryanair" aviadaşıyıcısından rəsmi şikayət etməyə hazırlaşır.

## Ət və kolbasanın ölümcül təhlükəsi

Elm adamları ət və kolbasanın insan sağlamlığına ölümcül təhlükə yaratdığını aşkarlayıblar. SİA RenTv-yə istinadən xəbər verir ki, Şimal-Qərb Universitetinin (Çikaqo) və Cornell Universitetinin (New York) Finberg Tibb Məktəbinin alimləri kolbasa, quş əti və qırmızı ətin həddindən artıq istehlak edilməsinin ürək-damar xəstəliklərinin inkişaf riskini əhəmiyyətli dərəcədə artırdığını sübut ediblər.

Elmi iş təxminən 50 yaşlarında 30 mindən çox insanın məlumatlarını əhatə edib. Tədqiqat iştirakçıları bir qidalanma gündəliyi saxlayıblar və sağlamlıqları haqqında məlumatları qeyd ediblər. Müşahidələr təxminən 30 il davam edib. Eurek Alertin məqaləsinə görə, ürək və damar xəstəliklərinin inkişaf riski həftədə iki porsiya qırmızı və təkrar emal edilmiş ət, həmçinin quş əti istehlakı ilə 3-7% artır. Qeyd olunur ki, həftədə iki porsiya quş əti ölüm riskini 4% artırır.

Elm adamları ət məhsullarının tez-tez istehlakının onkologiyanın inkişafına da səbəb olduğu barədə xəbərdarlıq ediblər. Bununla yanaşı, təhlükəyə ətin özü deyil, hazırlandığı yol səbəb ola biləcəyi barədə də xəbərdarlıq ediblər. Alimlər lobya, qozfındıq və balıqları sağlamlıq üçün faydalı adlandırıblar.

***İnam Hacıyev***



## ŞOK: Ata azyaşlı qızını satışa çıxardı!

Rusiyanın Çelyabinsk şəhərində yaşayan Vyaçeslav adlı şəxs internetə uşağının satıldığı barədə elan yerləşdirib. Elanda 5 yaşlı qızının şəkillərini də paylaşan ata Rusiya istehsalı olan "Maşa və Ayı" cizgi filmindən ilhamlanaraq qızının adını Maşa kimi təqdim edib. SİA-nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, valideyn azyaşlı qızına 5000 rubl qiymət qoyub. Qızını almaq istəyənləri görüşmək üçün şəhərin mərkəzinə çağıran atanın bu elanı Rusiya polisi tərəfindən nəzarətə götürülüb. Aparılan əməliyyat tədbirləri nəticəsində prokurorluğun da qərarı ilə qızını satışa çıxaran ata tutulub.

Şəhər prokurorluğu atanın insan alverində təqsirli bilinərək mühakimə olunacağını açıqlayıb. Həmçinin elanı veb saytında yayımlayan redaktor da məsuliyyətə cəlb olunub.

## Azərbaycanda onkoloji xəstələrin sayı açıqlanıb



Təəssüf ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da onkoloji xəstələrin sayı artır. Əgər 2017-ci ildə ölkəmizdə 45,7 min xəstə var idisə, 2018-ci ildə 49,1 min onkoloji xəstə qeydə alınıb. Lakin bununla yanaşı, hazırda ölkəmizdə yeni əmələ gələn şişlərlə beş və daha çox il yaşayan 17,6 min xəstə var. Səhiyyə Nazirliyi Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, 2009-cu ildə Milli Onkoloji Mərkəzinin açılışından sonra ölkəmizdə xərçəng xəstəliklərinin müalicəsi sahəsində çox böyük irəliləyişlər baş verib. 2012-ci ildə Uşaq Onkologiya Mərkəzi, 2014-cü ildə yeni müalicə korpusu və bədxassəli şişlərinin molekulyar diaqnostikası laboratoriyaları açılıb.

## Ermənistan futbolunun keçmiş "patronu" saxlanılıb



Ermənistan Futbol Federasiyasının sabiq prezidenti Ruben Ayrapetyan zorla polis bölməsinə aparılıb. Qol.az xəbər verir ki, bu barədə xəbəri onun vəkili Amram Makinyan yayıb. O bildirib ki, federasiyanın sabiq rəhbəri maskalı polis əməkdaşları tərəfindən saxlanılıb. Vəkilin sözlərinə görə, bu addım əsassız şəkildə edilib.

Qeyd edək ki, R.Ayrapetyanın silah-sursatların qanunsuz saxlamasında şübhəli bilindiyi iddia olunur.

## Türkiyə əhalisinin sayı 83 milyonu keçib

2019-cu ildə Türkiyə əhalisinin sayı 83 milyon 154 min 997 nəfər olub. Bu rəqəm öncəki il ilə müqayisədə 1 milyon 151 min 115 nəfər artıb. Bu barədə Türkiyənin Statistika Komitəsi məlumat yayıb. Məlumata əsasən, ölkədə ən çox əhalisi olan şəhər İstanbuldur. Bu meqapolisdə yaşayanların sayı 2018-ci ilə nisbətən 451 min 543 nəfər artaraq 15 milyon 519 min 267 nəfər təşkil edib. Statistik göstəricilərə görə, ölkədə əhalinin 50,2 faizini kişilər, 49,8 faizini isə qadınlar təşkil edir. Ölkədə yaşayan xarici vətəndaşların sayı ötən ilə nisbətən 320 min 146 nəfər artaraq 1 milyon 531 min 180 nəfər olub.



## Gədəbəydə avtomobilin vurduğu piyada hadisə yerində ölüb

Gədəbəy və Səbail rayonlarında ölümlə nəticələnən yol-nəqliyyat hadisələri baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Gədəbəy rayonunun Zəhmətkənd kəndi ərazisində yolu keçən rayon sakini Bayram Əliyev Samanlıq kənd sakini Sadıq Musayevin idarə etdiyi "VAZ-21213" markalı avtomobillə vurulub. Piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Səbail rayonunun Neftçilər prospektində Gəncə şəhər sakini Vüsal İsmayılov idarə etdiyi "Suzuki" markalı motosikleti yolun kənarındakı ağaca vurub və o, aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisələrlə bağlı araşdırmalar aparılır.



***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**